Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 216 (7943) CÜMƏ AXŞAMI, 27 sentyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





# Azərbaycan üçüncü peykini orbitə göndərdi

**Prezident İlham Əliyev**
bu əlamətdar hadisəni ölkəmizin növbəti tarixi nailiyyəti, şanlı qələbəsi kimi səciyyələndirdi





## 190 milyon dollarlıq "Azerspace 2" 400 milyon dollar gəlir gətirəcək

**Sentyabrın 26-sında şanlı tariximizdə daha bir əlamətdar gün yaşandı. Bakı vaxtı ilə saat 2:38 radələrində Fransız Qvianasında yerləşən kosmodromdan - Qviana Kosmik Mərkəzindən "Azerspace 2" peykimiz uğurla orbitə buraxıldı.**

Peyk Fransanın "Arianespace" şirkətinə məxsus "Ariane 5" daşıyıcı raketi ilə orbitə çıxdı və startdan təqribən 42 dəqiqə sonra raketin gövdəsindən uğurla ayrıldı. Bu, müstəqil Azərbaycanın "Azerspace 1" telekommunikasiya peyki və "Azərsky" müşahidə peykindən sonra orbitə çıxan sayca 3-cü peyki oldu.

"Azərkosmos"dan qəzetimizə verilən məlumata görə, "Azerspace 2" peyki ABŞ-ın "Space Systems/Loral" şirkəti tərəfindən yüksək etibarlı "SSL 1300" peyk platforması əsasında istehsal olunub. Peykin orbitdə yanacaq ömrü minimum 20 il təşkil edəcək.

Avropa, Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və Tropik Afrika ölkələrini əhatə edəcək peyk regionda dövlət və özəl qurumlara şəbəkə xidmətləri sahəsində artmaqda olan tələbləri qarşılamaq üçün yüksək texniki imkanlar, əlverişli əhatə zonası və keyfiyyətli xidmət təklif edəcək. Yeni peyk "Azərkosmos"un xidmət spektrinin və fəaliyyət coğrafiyasının genişləndirilməsi ilə yanaşı, həm də birinci telekommunikasiya peyki - "Azerspace 1"in orbitdəki ehtiyatı olacaq. Bu da öz növbəsində "Azərkosmos"a bugünədək ehtiyat peykin olmaması səbəbindən iştirak edə bilmədiyi irihəcmli beynəlxalq tenderlərdə iştirak etmək imkanı yaradacaq.

Yeni peyk "Azərkosmos"un təbiətinə görə kifayət qədər mühafizəkar və yüksək rəqabətli peyk xidmətləri bazarındakı dəyər təklifini və mövqeyini gücləndirəcək. Onu da əlavə edək ki, "Azerspace 2" peyki hələ orbitə buraxılmamış artıq onun tutumlarının 46 faizi dünyanın peyk xidmətləri üzrə aparıcı şirkəti olan "İntelsat" şirkətinə satılıb. Bu müqavilə üzrə ödənişlər layihə dəyərinin və maliyyələşmə xərclərinin 60 faizinin geri qaytarılmasını təmin edəcək. Hazırda peykin qalan tutumlarının satışı ilə əlaqədar digər ölkələrlə aktiv biznes danışıqları aparılır.

Ümumilikdə, dəyəri 190 milyon dollar olan "Azerspace 2" peykinin ölkə iqtisadiyyatına 400 milyon dollar gəlir gətirəcəyi proqnozlaşdırılır.

Bütün bunlar əlbəttə ki, ilk növbədə, Prezident İlham Əliyevin ölkədə kosmik sənayenin yaradılmasına və sonrakı inkişafına, informasiya texnologiyalarının yüksəlməsinə verdiyi xüsusi önəmin göstəricisidir. Üçüncü orbitimizin uğurla peykə buraxılması, Cənubi Qafqazın lideri, Avrasiyanın nəqliyyat-logistik tranzit qovşağı hesab olunan müstəqil Azərbaycan həm də regional kosmik sənaye mərkəzinə çevrildiyini bir daha təsdiqlədi.

Tarixinin ən qüdrətli dövrünü yaşayan müstəqil Azərbaycan artıq orbitdə özünün telekommunikasiya peyki olan azsaylı ölkələrdən biridir. Əlbəttə ki, informasiya-kommunikasiya texnologiyalarının inkişafı uğurlu gələcəyimizin təminatıdır. Bu uğurla ölkəmiz telekommunikasiya sahəsində xarici tərəfdaşlardan asılılığını da aradan götürüb. Onu da əlavə edək ki, kosmik sənayedə əldə etdiyi uğurlar ölkəmizin qeyri-neft sənayesinin davamlı inkişafına da böyük töhfə verəcək.

İlham Əliyevin bu uğur münasibəti ilə xalqa ünvanladığı təbrikdə söylədiyi kimi, qısa müddət ərzində dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilən Azərbaycan qarşıya qoyduğu bütün vəzifələri uğurla icra edir, respublikamız dünyada müasir texnologiyaların inkişafında öz dəyərli sözünü deyir.

Bir sözlə, 3-cü peykimizin orbitə buraxılması kosmik sahədə beynəlxalq əməkdaşlıq üçün çox möhkəm zəmin yaradır. Belə ki, "Azərkosmos" beynəlxalq kosmik layihələr çərçivəsində xarici dövlətlərin kosmik agentlikləri ilə kosmosdan dinc məqsədlərlə istifadə üzrə qarşılıqlı fayda gətirən əməkdaşlıqlar qurur ki, bu da öz növbəsində, müstəqil Azərbaycanın beynəlxalq ictimaiyyət qarşısında intellektual nüfuzunun daha da möhkəmlənməsinə xidmət edir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*



## Prezident İlham Əliyevin "Azerspace 2" peykinin orbitə buraxılması münasibətilə Azərbaycan xalqına təbriki

Azərbaycanın "Azerspace-2" peyki sentyabrın 26-da Fransa Qvianasında yerləşən Kuru kosmodromundan orbitə buraxılıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu münasibətlə xalqımızı təbrik edib.

Dövlət başçısı deyib:

- Əziz həmvətənlər.

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün "Azerspace 2" peykimiz orbitə çıxarıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm. Bu, ölkəmizin növbəti qələbəsidir, dövlətimizin növbəti uğurudur.

Son beş il ərzində Azərbaycan orbitə 3 peyk çıxara bilmişdir. Azərbaycan bu gün dünyanın kosmik klubunun üzvüdür və dünyanın kosmik sənayesində öz mövqelərini möhkəmləndirir. Peyklərin orbitə çıxarılması dövlətimizin gücünü göstərir, bizim siyasətimizi göstərir. Bizim artıq 3 peykimiz var: "Azerspace 1" telekommunikasiya peyki, "Azersky" müşahidə peyki və "Azerspace 2".

Bildiyiniz kimi, bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi qeyd edilir. Mənim sərəncamımla 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilmişdir. Eyni zamanda, gələn ay biz müstəqilliyimizin bərpasının 27-ci ildönümünü qeyd edəcəyik. Biz "Azerspace 2" peykimizin orbitə çıxarılmasını Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə, Azərbaycanın dövlət müstəqilliyinə həsr edirik.

Bu peyklərin çox böyük əhəmiyyəti var. İlk növbədə, Azərbaycan informasiya təhlükəsizliyi baxımından daha da önəmli addım atır. Bu gün peyklərimiz vasitəsilə Azərbaycan telekanalları dünyaya öz verilişlərini təqdim edə bilirlər. Bu gün Azərbaycan telekommunikasiya sahəsində xarici tərəfdaşlardan asılılığını tam aradan götürübdür. Eyni zamanda, kadr hazırlığı üçün Azərbaycanın kosmik sənayesinin inkişafı önəmli rol oynayır. Peykləri idarə edən kadrlar azərbaycanlı mütəxəssislərdir və onların böyük əksəriyyəti gənclərdir.

Kosmik sənayenin inkişafı bu sahədə beynəlxalq əməkdaşlığımızı da dərinləşdirir. Biz dünyanın bu sahədə böyük təcrübəyə malik olan aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edirik.

Peyklərin, eyni zamanda, kommersiya tərəfi var. Bu gün Azərbaycan öz məhsulunu ixrac edir və peyklərin fəaliyyəti nəticəsində ölkəmizə valyuta gəlir. Azərbaycanın kosmik sənayedə əldə etdiyi uğurlar, eyni zamanda, qeyri-neft sektorumuzu inkişaf etdirir, qeyri-neft sənayemizi irəliyə aparır. Təsadüfi deyil ki, bu ilin səkkiz ayının göstəricilərinə görə, Azərbaycanda qeyri-neft sənayesi təxminən 11 faiz artmışdır. Eyni zamanda, "Azersky" müşahidə peyki vasitəsilə biz nəinki ölkəmizin, dünyanın istənilən nöqtəsində baş verən bütün hadisələri daim müntəzəm olaraq izləyə bilirik, nəzarət edə bilirik. Azərbaycanın müdafiə və hərbi potensialının gücləndirilməsi işində "Azersky" peykinin xüsusi rolu vardır. Bu peykin fəaliyyəti nəticəsində biz bu sahədə də xaricdən asılılığı tamamilə aradan qaldırdıq və bir çox ölkələr üçün peyk xidməti göstəririk.

İnfrastruktur layihələrimizin icrası və mövcud infrastrukturun qorunması üçün peyklərin böyük əhəmiyyəti var. Kənd təsərrüfatının inkişafı, ekoloji vəziyyətə nəzarət, torpaqlardan səmərəli şəkildə istifadə edilməsi - bütün bu işlərdə "Azersky" müşahidə peykinin xüsusi rolu var.

Bir sözlə, əziz vətəndaşlar, əziz dostlar, bu gün ölkəmizin həyatında növbəti əlamətdar bir gündür. Azərbaycan qısa müddət ərzində dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilibdir. Azərbaycan qarşıya qoyduğu bütün vəzifələri uğurla icra edir. Bizim yolumuz inkişaf yoludur, tərəqqi yoludur və bu gün Azərbaycan dünyada müasir texnologiyaların inkişafında öz dəyərli sözünü deyir. "Azerspace 2" telekommunikasiya peykinin orbitə çıxarılması bizim növbəti tarixi qələbəmizdir. Bundan sonra da Azərbaycan yalnız uğurlar, qələbələr yolu ilə gedəcək.

Bir daha sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

## Roma Papası Azərbaycanın dinlərarası, mədəniyyətlərarası dialoqa mühüm töhfələr verdiyini bəyan etdi

*Mehriban Əliyeva ilə görüşündə Fransisk Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətini yüksək qiymətləndirdi*

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva İtaliyaya rəsmi səfəri çərçivəsində sentyabrın 26-da Roma Papası Fransisk ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Müqəddəs Taxt-Tac ilə Azərbaycan arasında əlaqələrin yüksək səviyyəsindən məmnunluq ifadə olundu, əməkdaşlığımızın mədəni irsin qorunması sahəsində daha da genişləndiyi vurğulandı. Azərbaycanın dinlərarası, mədəniyyətlərarası dialoqa mühüm töhfələr verdiyi qeyd edildi.

*Ardı 3-cü səh.*



*Erməni KİV:*

## "İlham Əliyev bizə uğursuz dövlət deməkdə tam haqlıdır"

Ermənistan mətbuatı və ekspertləri işğalçı ölkənin xilasının Dağlıq Qarabağ münaqişəsinin həllindən keçdiyini açıq şəkildə bildirirlər



**Birmənalı həqiqətdir ki, bu gün Ermənistanın bir dövlət olaraq varlığını davam etdirə bilməsi Azərbaycanla normal münasibətlərin qurulmasından, işğal siyasətindən əl çəkməsindən asılıdır. Əks təqdirdə, Ermənistanın çöküşü davam edəcək, ölkə daha böyük sürətlə tənəzzül girdabına yuvarlanacaqdır.**

Bunu əslində, bütün dünyada, o cümlədən Ermənistanın özündə də kifayət qədər aydın sezirlər. Bununla bağlı Ermənistanın "İravnuk" qəzeti yazır ki, Yerevan qonşu ölkələrin hamısı ilə münasibətlərini normallaşdırmasa, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmasa, hakimiyyətdə kimin olmasından asılı olmayaraq ölkədə hansısa iqtisadi tərəqqidən danışmaq mümkün deyil.

Qəzet bu mənada Nikol Paşinyanın hakimiyyətə gəlişi zamanı verdiyi vədlərin yerinə yetirilməsinin mümkünsüz olduğunu, əslində, cəmiyyətdə baş nazirə inamın sürətlə əriyib getdiyini də xüsusi olaraq diqqətə çatdırır.

*Ardı 5-ci səh.*

# Azərbaycan cüdoçusu dünya çempionatında gümüş medal qazanıb

*Prezident İlham Əliyev Milli Gimnastika Arenasında final görüşünə baxıb*





Bakıda cüdo üzrə dünya çempionatı davam edir.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri, Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa və Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer sentyabrın 26-da Milli Gimnastika Arenasında keçirilən yarışları izləyiblər.

Çempionatın yeddinci günündə də yarışlar gərgin idman mübarizəsi şəraitində keçib. Cüdoçularımızdan yalnız 100 kiloqramdan yuxarı çəki dərəcəsində Uşanqi Kokauri finala qədər addımlaya bilib. Uşanqi Kokauri belaruslu Vladislav Tsiarpitskiyə, Polşa idmançısı Masiey Sarnackiyə, çexiyalı Lukas Krpalekə və özbəkistanlı Bekmurod Oltıboevə qalib gələrək finala yüksəlib. Həlledici görüşdə gürcüstanlı Quram Tuşişviliyə məğlub olan cüdoçumuz gümüş medalla kifayətlənib.

2016-cı ildə Avropa kubokunun qalibi olan Uşanqi Kokauri həmin il Kazanda keçirilən Avropa çempionatının bürünc medalını qazanıb.

Qeyd edək ki, 125 ölkənin iştirak etdiyi cüdo üzrə dünya çempionatında 460 kişi və 298 qadın idmançı mübarizə aparır.

## Türkmənistanın Prezidenti zati-aliləri cənab Qurbanqulu Berdiməhəmmədova

Hörmətli Qurbanqulu Məlikquliyeviç!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan-Türkmənistan münasibətləri ortaq dəyər və ənənələrə malik xalqlarımızın iradəsindən qaynaqlanır. Əminəm ki, dövlətlərarası münasibətlərimizin hazırkı yüksək səviyyəsi əməkdaşlığımızın bütün sahələrdə dərinləşməsi üçün daim möhkəm zəmin olacaqdır.

Belə bir xoş gündə Sizə möhkəm can-sağlığı, işlərinizdə uğurlar, qardaş Türkmənistan xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 sentyabr 2018-ci il*

## Gəncə şəhərində yeni infrastruktur layihələrinin həyata keçirilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Gəncədə abadlıq-quruculuq işlərinin davam etdirilməsi, yeni infrastruktur layihələrinin həyata keçirilməsi məqsədi ilə **qərara alıram:**

1. Gəncə şəhərində abadlıq-quruculuq işlərini davam etdirmək, o cümlədən avtomobil yollarının əsaslı təmiri və şəhərin küçələrinin işıqlandırılması işlərini həyata keçirmək üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Gəncə Şəhər İcra Hakimiyyətinə 10,0 (on) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 sentyabr 2018-ci il*

## Azərbaycan Respublikasının "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti ilə Fransa Respublikasının Milli Kosmik Tədqiqatlar Mərkəzi arasında kosmos sahəsində birgə fəaliyyətlərə dair Çərçivə Sazişinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti ilə Fransa Respublikasının Milli Kosmik Tədqiqatlar Mərkəzi arasında kosmos sahəsində birgə fəaliyyətlərə dair 2018-ci il iyulun 20-də Paris şəhərində imzalanmış Çərçivə Sazişi təsdiq edilsin.

2. Bu fərmanın 1-ci hissəsində göstərilən Çərçivə Sazişi qüvvəyə mindikdən sonra "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Çərçivə Sazişinin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Fransa Respublikasının Milli Kosmik Tədqiqatlar Mərkəzinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 sentyabr 2018-ci il*

## M.Q.Quliyevə general-polkovnik ali hərbi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Qəzənfər oğlu Quliyevə general-polkovnik ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 sentyabr 2018-ci il*

## Azərbaycan Respublikasının Qızılağac Milli Parkının yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin genişləndirilməsini, biomüxtəlifliyin qorunub saxlanılmasını, təbii resurslardan səmərəli istifadəsini və ekoturizmin inkişafını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Kiçik Qızılağac Dövlət Təbiət Yasaqlığına aid torpaqlardan 10390,89 hektar və Neftçala rayonunun inzibati ərazisində yerləşən dövlət ehtiyat fondu torpaqlarından 309,11 hektar ayrılmaqla, Qızılağac Dövlət Təbiət Qoruğunun (88360,0 hektar) bazasında bu sərəncama əlavə edilən yerquruluşu planında göstərilmiş 99060,0 hektar sahədə Azərbaycan Respublikasının Qızılağac Milli Parkı yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 sentyabr 2018-ci il*

## "Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyul tarixli 417 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyul tarixli 417 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 7, maddə 593; 2012, № 2, maddə 103; 2014, № 2, maddə 112, № 6, maddə 644, № 11, maddə 1414; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2017, № 4, maddə 580) 1-ci hissəsi ilə yaradılmış komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın həmsədri**

Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası energetika nazirinin müavini

Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini

Azərbaycan Respublikası təhsil nazirinin müavini

Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini

Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini

Azərbaycan Respublikasının Latviya Respublikasında fövqəladə və səlahiyyətli səfiri.".

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Latviya Respublikası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 sentyabr 2018-ci il*

## "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Rəqəmsal transformasiya və texnoloji innovasiyalar bir çox maliyyə xidmətinə sürətli, asan və effektiv çıxış əldə etməyə imkan verir.

"2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın (bundan sonra - Dövlət Proqramı) strateji məqsədi vətəndaş, biznes subyektləri və dövlət strukturları arasında nağdsız ödəniş mühitinin xeyli genişlənməsi, nağd dövriyyənin həcminin minimuma endirilməsi və nəticədə bank sektorunun maliyyə resursları bazasının gücləndirilməsidir. Bu məqsədlə ölkədə rəqəmsal ödəniş xidmətlərinin institusional və hüquqi bazasının gücləndirilməsi, infrastruktur imkanlarının artırılması yolu ilə həmin xidmətlərin çeşidinin, keyfiyyətinin və tətbiq dairəsinin genişləndirilməsi, habelə onlardan istifadənin kütləviləşdirilməsi başlıca strateji prioritetlərdir.

Rəqəmsal ödənişlərin tətbiqinin və istifadəsinin genişləndirilməsi iqtisadi dövriyyələri şəffaflaşdırmaqla, nağd pulla bağlı xərclərin, bank və müəssisələrin əməliyyat xərclərinin azalmasına gətirib çıxaracaq ki, bu da öz növbəsində, vergi bazasının, habelə əhali və müəssisələrin maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsinə, bank sektorunun kreditləşmə və investisiya imkanlarının gücləndirilməsinə və son nəticədə iqtisadi artıma təkan verəcəkdir.

Bu Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə rəqəmsal ödənişlərin genişləndirilməsi ilə bağlı nəzərdə tutulan tədbirlərin icrası və müəyyən olunmuş icra göstəricilərinə nail olmaq məqsədilə hazırlanmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikasında elektron ödəniş xidmətlərinin inkişaf etdirilməsi və tətbiqinin genişləndirilməsi məqsədilə **qərara alıram:**

1. "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Mərkəzi Bankı:

2.1. bu sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirsin;

2.2. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinq və qiymətləndirilməsi Azərbaycan Respublikası Mərkəzi Bankının sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçirilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 sentyabr 2018-ci il*

# Azərbaycanın hərbi potensialı davamlı yüksəlir və təkmilləşir

## Baş nazir Novruz Məmmədov "ADEX 2018" Üçüncü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi ilə tanış olub









Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov sentyabrın 26-da Bakı "Exspo" Mərkəzində "ADEX 2018" Üçüncü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi ilə tanış olub. AZƏRTAC xəbər verir ki, Baş nazirə sərgi barədə məlumat verilib.

Bildirilib ki, "ADEX 2018" sərgisində 29 ölkədən 224 şirkət və rəsmi nümayəndə heyətləri iştirak edir. Sərginin iştirakçıları olan bir sıra ölkələr əvvəlki illərlə müqayisədə milli ekspozisiyalarının sahəsini böyüdüblər. Təmsil olunan şirkətlərin sayının çoxluğuna görə ilk dördlüyə Türkiyə (41şirkət), Rusiya (25 şirkət), İsrail (14 şirkət) və Belarus (10 şirkət) daxildir. İştirakçıların coğrafiyası Estoniya, Hindistan və Qazaxıstan kimi ölkələrin hesabına genişlənib. Ümumilikdə, ziyarətçi şirkət və qurumlarla birlikdə sərginin coğrafiyası 44 ölkəni əhatə edir.

Qeyd edilib ki, Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi, eləcə də nazirliyin nəzdindəki istehsalat birlikləri və zavodlar, o cümlədən Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) sərginin fəal iştirakçılarıdır.

Burada peşəkarlar ölkənin müdafiə sənayesinin yenilikləri, habelə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin mövcud və inkişaf edən potensialı ilə yaxından tanış olmaq imkanı əldə edirlər. Bu il Azərbaycandan "Caspian Ship Building Company", Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, AMEA-nın Yüksək Texnologiyalar Parkı, "Vitta" elmi-texniki şirkəti və Hərbi Hava Qüvvələrinin silah və zirehli texnikaya texniki baxış üzrə servis mərkəzi sərgidə ilk dəfə iştirak edir.

Müdafiə Sənayesi Nazirliyinin pavilyonunda nazirliyin müəssisələrində yaradılan və istehsal olunan ən son silah və hərbi texnikalar nümayiş etdirilir. Burada iştirakçılar və ziyarətçilər Azərbaycan müdafiə sənayesinin yenilikləri, inkişaf etməkdə olan potensialı ilə yaxından tanış ola bilirlər.

Beynəlxalq nümayəndə heyətləri və şirkətlər tərəfindən "ADEX" sərgisinə göstərilən maraq Azərbaycanın regionda mühüm strateji əhəmiyyətini bir daha təsdiqləyir.

Baş nazir Novruz Məmmədov sərginin pavilyonları ilə tanış olub.

# Roma Papası Azərbaycanın dinlərarası, mədəniyyətlərarası dialoqa mühüm töhfələr verdiyini bəyan etdi

*Mehriban Əliyeva ilə görüşündə Fransisk Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətini yüksək qiymətləndirdi*





*Əvvəli 1-ci səh.*

Söhbət zamanı Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti, fondun xristian abidələrinin qorunması, bərpası istiqamətində gördüyü işlər yüksək qiymətləndirildi.

Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Roma Papasına çatdırdı.

Papa Fransisk Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını dövlətimizin başçısına çatdırmağı xahiş etdi.





# Müqəddəs Taxt-Tac Azərbaycanı Şərq ilə Qərb arasında özünəməxsus mədəniyyət körpüsü kimi qəbul edir






Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sentyabrın 26-da Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın Şərq ilə Qərb arasında özünəməxsus mədəniyyət körpüsü rolu oynadığı bildirildi, ölkəmizdə əsrlər boyu formalaşmış tolerantlıq ənənələri, multikultural mühit yüksək qiymətləndirildi. Söhbət zamanı Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoqun möhkəmlənməsinə verdiyi töhfələr, bununla bağlı ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, xüsusilə də Heydər Əliyev Fondunun bu istiqamətdə gördüyü işlər, reallaşdırdığı mühüm layihələr qeyd edildi.

# Mehriban Əliyevadan dünya mədəniyyətinə növbəti töhfə

## Azərbaycanın Birinci vitse-prezidenti Romada Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Müqəddəs Sebastian katakombalarının açılışını edib






Romada Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Müqəddəs Sebastian katakombalarının sentyabrın 26-da açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva açılış mərasimində iştirak edib.

Kardinal Can-Franko Ravazi Birinci vitse-prezident Mehriban Əliyevanı qarşıladı.

Sonra Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Müqəddəs Sebastian katakombalarının açılışı oldu.

Birinci vitse-prezident Mehriban Əliyeva və Kardinal Can-Franko Ravazi rəmzi açılışı bildirən lenti kəsdilər.

Burada Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərinə 2016-cı ildə başlanılıb. Görülən işlərə görə Azərbaycanın Birinci vitse-prezidentinə minnətdarlıq ifadə olundu. Bildirildi ki, bərpa işləri mükəmməl həyata keçirilib. Ümumilikdə katakombalarda 8 minə yaxın sərdaba yerləşir. Katakombaların zəngin tarixi var. Onlar bütün xristian dünyası üçün mühüm əhəmiyyət daşıyır. Katakombalar təbii və ya süni yeraltı məntəqələrdir. Onlar çox dar dəhlizlərdən ibarət olur. Əvvəllər Romada müqəddəs Sebastian kilsəsinin altında yerləşən dəfn qalereyalarına katakombalar deyilirdi. Bu katakombalar 1578-ci ildə aşkarlanıb. Buradakı bəzi abidələrin yaşı III əsrə gedib çıxır.



Qeyd edək ki, bundan əvvəl Heydər Əliyev Fondunun təşəbbüsü ilə Müqəddəs Marçellinio və Pietro katakombaları da bərpa olunub. Dünya mədəniyyəti, xüsusilə də xristianlar üçün böyük mənəvi dəyəri olan katakombaların müsəlman ölkəsi Azərbaycanın Heydər Əliyev Fondu tərəfindən bərpa edilməsi ölkəmizin dinlərarası və mədəniyyətlərarası dialoqa verdiyi növbəti töhfədir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dünya əhəmiyyətli tarixi, dini, mədəni abidələri bərpa etməsi həm də ümumilikdə ölkəmizin təbliği, dünyada layiqincə təmsil olunması baxımından mühüm əhəmiyyətə malikdir.

# İtaliya Prezidenti tərəfindən Azərbaycanın Birinci vitse-prezidentinin şərəfinə rəsmi nahar verilib







Sentyabrın 26-da İtaliya Respublikasının Prezidenti Sercio Mattarella tərəfindən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın şərəfinə rəsmi nahar verilib. AZƏRTAC xəbər verir ki, Prezident Sercio Mattarella Birinci vitse-prezident Mehriban Əliyevanı qarşıladı.

Azərbaycanın nümayəndə heyəti Prezident Sercio Mattarellaya, İtaliyanın dövlət və hökumət rəsmiləri Birinci vitse-prezident Mehriban Əliyevaya təqdim olundu.

Sonra birgə foto çəkdirildi.

Daha sonra İtaliya Prezidenti tərəfindən Azərbaycanın Birinci vitse-prezidentinin şərəfinə rəsmi nahar verildi.

# Səfər başa çatdı



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın İtaliya Respublikasına rəsmi səfəri sentyabrın 26-da başa çatıb.

AZƏRTAC

# Azərbaycan ilə Ukrayna arasında strateji tərəfdaşlıq əlaqələri gündən-günə güclənir





Sentyabrın 26-da Bakıda Ukraynanın dövlət müstəqilliyinin 27-ci ildönümü və Ukrayna dövlətçiliyinin 100 illik yubileyi münasibətilə rəsmi qəbul təşkil edilib.

AZƏRTAC xəbər verir ki, Ukraynanın Azərbaycandakı səfirliyi tərəfindən təşkil olunan rəsmi qəbulda əvvəlcə hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

Ukraynanın Azərbaycandakı səfiri Aleksandr Mişşenko ölkəsinin 27 il ərzində keçdiyi inkişaf yolundan danışıb. Bildirib ki, Ukrayna müstəqilliyini əldə etdikdən sonra bütün ölkələrlə, eləcə də Azərbaycan ilə münasibətlər qurulması üçün konkret addımlar atıb. Bu gün dost Azərbaycan ilə münasibətlər yüksələn xətt üzrə inkişaf edir. Ölkələrimiz iqtisadiyyat, energetika, humanitar və digər sahələrdə əməkdaşlıq edirlər. Diplomat ikitərəfli münasibətlərin inkişafında dövlət başçılarının rolunu qeyd edib. O əlavə edib ki, bu gün Ukrayna dost Azərbaycanın əldə etdiyi bütün uğurlara sevinir.

Rəsmi qəbulda çıxış edən Baş nazirin birinci müavini Yaqub Eyyubov Azərbaycan hökuməti adından Ukrayna xalqını təbrik edib, sülh və əmin-amanlıq arzulayıb. Baş nazirin birinci müavini çıxışını Azərbaycan dilində etdiyinə görə səfirə təşəkkür edib, bunu Azərbaycanın dövlət dilinə hörmət kimi qiymətləndirib. O vurğulayıb ki, Azərbaycan ilə Ukrayna arasında strateji tərəfdaşlıq əlaqələri gündən-günə güclənir. Ölkələrimiz bir sıra sahələrdə, o cümlədən iqtisadi və mədəni sahələrdə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi yolu ilə inamla irəliləyirlər. Həyata keçirilən qarşılıqlı səfərlər, imzalanmış çoxsaylı sənədlər dövlətlərimiz arasında münasibətlərin inkişafına təkan verir. Ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək nümayiş etdirirlər.

Baş nazirin birinci müavini əmin olduğunu bildirib ki, Azərbaycan-Ukrayna əlaqələri gələcəkdə daha da inkişaf edəcək.

Tədbirdə "ADEX 2018" Üçüncü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində iştirak etmək üçün Bakıda səfərdə olan "Ukroboronprom" Dövlət Konserninin baş direktoru Pavlo Bukin də çıxış edib. O, Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubovu "Ukroboronprom" Dövlət Konserninin fəxri nişanı ilə təltif edib.

Tədbir çərçivəsində Ukrayna hərbi sənayesinin nümunələrinin əks olunduğu sərgi təqdim edilib.

Rəsmi qəbulda, həmçinin "Donbas alov içində" adlı kitabın təqdimatı olub.

Tədbirdə dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, xarici ölkələrin Azərbaycandakı səfirləri, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

# Yaxın zamanlarda dərman vasitələrinin ölkəmizə gətirilməsi qaydaları sadələşdiriləcək



Sentyabrın 26-da Nazirlər Kabinetində dərman vasitələrinin qeydiyyata alınması, ölkəyə gətirilməsi və gömrük məntəqələrində rəsmiləşdirilməsi qaydalarının sadələşdirilməsi məsələləri ilə bağlı iclas keçirilib.

AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini Əli Əhmədovun sədrlik etdiyi iclasda müvafiq dövlət qurumlarının rəhbərləri və nümayəndələri müzakirələr aparıblar.

İclasda Əli Əhmədov bildirib ki, Azərbaycanın dərman bazarının bol çeşidli preparatlarla zənginləşməsi, ölkə vətəndaşlarının keyfiyyətli dərmanlarla təmin olunması, dərman vasitələrinin keyfiyyətinə nəzarətin gücləndirilməsi məqsədilə aidiyyəti qurumlar bir sıra yeni təkliflərlə çıxış ediblər. "Ölkəyə idxal olunan dərman vasitələrinin ilk olaraq qeydiyyatı və gömrük rəsmiləşdirilməsi şərtləri sadələşdirilməlidir", - deyən Baş nazirin müavini bunun üçün dünya təcrübəsinin öyrənilməsinin və tətbiqinin vacib olduğunu vurğulayıb. Əli Əhmədov Azərbaycanda hər növdən olan dərman vasitələrinin əlçatanlığının səhiyyəmizin inkişafına təkan verəcəyini qeyd edib. "Hesab edirəm ki, dərman bazarında əlçatanlıq təmin olunmalıdır. Digər tərəfdən, dərman preparatlarının idxalı əsasən Dünya Səhiyyə Təşkilatının tövsiyə etdiyi dərmanlara istinad edilməsi meyarlarına əsaslanmalı, bütün idxal proseduru ciddi şəkildə sadələşdirilməlidir. Bunun üçün də Dövlət Gömrük Komitəsi dünya təcrübəsinə əsaslanaraq yeni təkliflərlə çıxış etməlidir. Eyni zamanda, dərmanların keyfiyyətinə nəzarət Səhiyyə Nazirliyi tərəfindən gücləndirilməlidir. Lazım gəlsə, normativ hüquqi aktlarda dəyişiklik edilə bilər. Əminəm ki, bu təkliflərin əsasında qanunvericilikdə edilən dəyişikliklər vətəndaşlarımızın həm rahatlığına, həm də sağlamlıqlarının qorunmasına xidmət edəcək", - deyə Əli Əhmədov vurğulayıb.

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev, səhiyyə naziri Oqtay Şirəliyev və digər aidiyyəti qurumların rəhbərləri bu sahədə dünya təcrübəsindən yararlanaraq tez bir zamanda yeni təkliflərlə çıxış edəcəklərini bildiriblər.

İclasda dərman vasitələrinin qeydiyyata alınması, ölkəyə gətirilməsi və gömrük məntəqələrində rəsmiləşdirilməsi qaydalarının qısa vaxt ərzində əsaslı şəkildə sadələşdirilməsi barədə tapşırıq verilib.

# Azərbaycan ilə San-Tome və Prinsipi Demokratik Respublikası arasında diplomatik əlaqələr qurulub

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun Nyu Yorkda San-Tome və Prinsipi Demokratik Respublikasının xarici işlər və icmalar naziri Urbino Botelho ilə görüşü keçirilib. AZƏRTAC xəbər verir ki, BMT Baş Assambleyasının 73-cü sessiyası çərçivəsində keçirilən görüş zamanı tərəflər "Azərbaycan Respublikası və San Tome və Prinsipi Demokratik Respublikası arasında diplomatik əlaqələrin yaradılmasına dair birgə kommunike" sənədi imzalayıblar.

# *Hikmət HACIYEV:* "Ermənistanın baş naziri Yerevan küçələri ilə BMT Baş Assambleyasının kürsüsünü qarışıq salıb"



Ermənistanın baş naziri Yerevan küçələri ilə BMT Baş Assambleyasının kürsüsünü qarışıq salıb. O, yenə də beynəlxalq ictimaiyyəti uğursuz şəkildə aldatmağa cəhd göstərib. Dövlət çevrilişi yolu ilə hakimiyyətə gəlməsini, oxlokratik diktaturanın qurulmasını demokratiya kimi təqdim etməsi cəhdləri gülünc doğurur. Populizm, siyasi demoqoqiya və kütlələrin manipulyasiyası ilə məşğul olan siyasətçilərin keçən əsrin 30-40-cı illərində Avropada hansı fəsadlara yol açdığı hər kəsə yaxşı məlumdur.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyev deyib.

Hikmət Hacıyev qeyd edib ki, Ermənistanın baş naziri tərəfindən BMT Baş Assambleyasının 73-cü sessiyasının ümumu müzakirələrinin mövzusuna uyğun olaraq, ölkənin inkişafı, dayanıqlı inkişaf məqsədlərinin milli səviyyədə həyata keçirilməsi, qonşu dövlətlərlə sülh şəraitində yaşamaqla bağlı heç bir fakt və ya rəqəm səsləndirilməmişdir. Çünki bunlar yoxdur.

BMT Nizamnaməsinin 2(4) maddəsini kobud şəkildə pozaraq Azərbaycana qarşı gücdən istifadə edən və ölkəmizin Dağlıq Qarabağ bölgəsini və ətraf yeddi rayonunu işğal edən Ermənistan tərəfindən Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə əlaqədar Azərbaycana qarşı əsassız ittihamlar irəli sürülmüşdür. Ermənistan öz ərazisində və işğal olunmuş torpaqlarda bir milyondan artıq köklü Azərbaycan əhalisinə qarşı qanlı etnik təmizləmə törətmişdir.

Prezident Administrasiyasının rəsmisi deyib ki, Ermənistanın baş naziri sələflərinin siyasətini davam etdirərək təxribatçı və hərbi avantüra xarakterli addımları, ziddiyyətli və cəfəng fikirləri ilə danışıqlar prosesinin iflic hala salınmasına xidmət edir.

Bütün beynəlxalq ictimaiyyətə çox yaxşı bəllidir ki, münaqişənin həllində ən başlıca maneə Ermənistanın Azərbaycana qarşı hərbi işğalının davam etməsi və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğudur. Hələ bu azmış kimi Ermənistanın baş naziri beynəlxalq hüquqa və BMT Nizamnaməsinə tam hörmətsizlik şəraitində işğal edilmiş ərazilərin ilhaqına çağırır.

Ermənistanın baş naziri BMT-nin mənzil-qərargahında olduğu halda, münaqişənin həllinin siyasi-hüquqi əsasını təşkil edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin üzərindən qəsdən sükutla keçir.

Münaqişənin həllində irəliləyiş əldə etmək üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə uyğun olaraq, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərindən qoşunlarını çıxarmalı, məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasına mane olmağı dayandırmalı və beynəlxalq öhdəliklərinə əməl etməlidir. Yalnız bu halda münaqişənin həlli, regionda davamlı sülh və sabitliyin təmin olunması mümkündür.

# Rusiya Prezidenti Vladimir Putin Rusiya və Azərbaycan regionlarının IX forumunda iştirak edəcək

Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərə bildirib ki, Prezident Vladimir Putin sentyabrın 27-də Rusiya və Azərbaycan regionlarının IX forumunda, sonra isə sentyabrın 27-28-də Düşənbədə MDB ölkələrinin Dövlət Başçıları Şurasının iclasında iştirak edəcək.

AZƏRTAC xəbər verir ki, D.Peskov deyib: "Sabah axşam Prezident artıq Düşənbədə olacaq, orada qeyri-rəsmi naharda iştirak edəcək. Sentyabrın 28-də Düşənbədə MDB ölkələrinin Dövlət başçıları Şurası çərçivəsində tədbirlər keçiriləcək. Bundan əvvəl, sabah səhər tezdən Prezident Bakıya uçacaq. Orada Rusiya və Azərbaycan regionlarının forumu keçiriləcək. Dövlət başçıları Vladimir Putin və İlham Əliyev regionların rəhbərləri ilə söhbət edəcək, onların qarşısında çıxış edəcəklər. Bu görüşdən əvvəl Prezident hazırda Bakıda keçirilən cüdo üzrə dünya çempionatının bəzi yarışlarına tamaşa edəcək".

# Ermənistanın yeni rəhbərliyi məsuliyyətsiz bəyanatlarla münaqişənin sülh yolu ilə həllində istəkli olmadığını göstərir

Tarix boyunca Qoşulmama Hərəkatı Bandunq prinsiplərinə sadiq qalmağı təmin edərək beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində əsas rol oynayıb. Dünyanın üzləşdiyi sülh və təhlükəsizliyə qarşı təhdidlər beynəlxalq hüquqi sistemin gücləndirilməsinə və münaqişələrin qarşısını almaq və həll etmək üçün bütün səviyyələrdə ikiqat səylər göstərməyə çağırır. Bu xüsusda, dövlətlərarası münasibətlərdə rəhbər tutulan beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərinə, xüsusilə də dövlətlərin suverenliyi və ərazi bütövlüyünə və onların beynəlxalq sərhədlərinin toxunulmazlığına hörmət prinsiplərinə ciddi riayət olunması vacibdir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Qoşulmama Hərəkatının Nazirlər Konfransının sentyabrın 26-da Nyu Yorkda "BMT Nizamnaməsinin məqsəd və prinsiplərinin dəstəklənməsi: sülh mədəniyyətinə doğru" mövzusunda keçirilən toplantısında deyib.

E.Məmmədyarov deyib ki, ərazi əldə edilməsi üçün güc tətbiq olunmasının yolverilməzliyi prinsipi və beynəlxalq hüququn ciddi pozuntuları nəticəsində yaranmış vəziyyətlərin tanınmaması öhdəliyi universal şəkildə və qeyd-şərtsiz tətbiq olunmalı və gücləndirilməlidir. Nəzərdən keçirilən mövzu ilə bağlı Azərbaycanın mövqeyi məlumdur və bu mövqe ölkənin digər amillər arasında, silahlı təcavüz, etnik təmizləmə və qanunsuz xarici hərbi işğala məruz qalma təcrübəsindən qaynaqlanır.

Nazir bildirib ki, Venesuelanın Margarita adasında 2016-cı ilin sentyabrında keçirilən NAM XVII sammitində dövlət və hökumət başçıları BMT Təhlükəsizlik Şurasının qətnamələrinə (Qət/ № 822, 853, 874 və 884) rəğmən, Ermənistan və Azərbaycan arasındakı münaqişənin həll olunmamasına, beynəlxalq və regional sülhə və təhlükəsizliyə təhdid yaratmaqda davam etməsinə öz təəssüflərini ifadə etdilər. Bu həmrəylik Hərəkatın bir daha təcavüz, xarici hərbi işğal və etnik təmizləməyə qarşı böyük sədaqətini nümayiş etdirdi.

"Təəssüf ki, Ermənistanla Azərbaycan arasında münaqişənin həlli ilə bağlı bu gün sizinlə bölüşmək üçün yaxşı xəbərim yoxdur. Ermənistanın yeni rəhbərliyi ziddiyyətli və məsuliyyətsiz bəyanatlar verərək münaqişənin sülh yolu ilə həllində istəkli olmadığını nümayiş etdirir. Belə təxribatçı yanaşma danışıqlar prosesində müsbət inkişafların əldə olunmasına xidmət etməyəcək və yerində gərgin olan vəziyyəti daha da pisləşdirəcək.

Biz beynəlxalq ictimaiyyəti beynəlxalq hüququn normalarına uyğun hərəkət etməsi və Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı qəbul edilmiş BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini həyata keçirməsi üçün Ermənistana güclü ismarıc göndərməyə çağırırıq", - deyə Elmar Məmmədyarov vurğulayıb.

Nazir qeyd edib ki, Qoşulmama Hərəkatının Dövlət və Hökumət Başçılarının növbəti Zirvə toplantısı 2019-cu il iyunun 14-15-də Bakıda keçiriləcək. Sammit çərçivəsində 2019-cu il 10-11 iyun tarixlərində Baş Katiblərin Hazırlıq Yığıncağı və 12-13 iyun tarixlərində Nazirlərin Hazırlıq Yığıncağı keçiriləcək. Bu, bizim üçün 2016-cı ilin sentyabrında Venesuela Bolivar Respublikasının Margarita adasında keçirilən dövlət və hökumət başçılarının görüşü və o vaxtdan etibarən keçirilən nazirlərin görüşündən sonra gördüyümüz işlər nəticəsində əldə etdiyimiz tərəqqini qiymətləndirmək üçün gözəl bir fürsət olacaq.

"Bakı sammiti ilə Azərbaycan Hərəkatın sədrliyini üzərinə götürəcəkdir. Növbəti sədr qismində biz müharibəyə qarşı və sülhsevər qüvvə kimi Hərəkatın rolunun gücləndirilməsi, BMT-nin Nizamnaməsi və Bandunq prinsiplərinin dəstəklənməsi, həmçinin Birləşmiş Millətlər Təşkilatı ilə çoxtərəfli əlaqələrin təşviq edilməsi, qorunması və gücləndirilməsi istiqamətində səylərimizi əsirgəməyəcəyik.

Azərbaycan Hərəkata sədrliyini bütün üzv ölkələr üçün kritik bir dövrdə qəbul edir və bu, müasir dünyanın çağırışlarına uyğun və effektiv reaksiyalarımızı tələb edir. Azərbaycanın Hərəkata sədrliyi Bandunq prinsiplərinin (2020) 65 illiyi və NAM-ın yaranmasının 60 illiyi (2021) ilə üst-üstə düşəcəkdir. Hər iki ildönümü bizə bugünədək əldə edilmiş nailiyyətlərdən bəhrələnmək və qarşılaşdığımız çoxşaxəli və ortaya çıxan problemlərə üzv dövlətlərin ümumi baxışı və birləşdirilmiş gücü ilə necə cavab verməli olduğumuzu əks etdirmək üçün mükəmməl bir məqam olacaq", - deyə nazir Elmar Məmmədyarov bildirib.

# Elmar Məmmədyarov İslam Əməkdaşlıq Təşkilatının Cəmmu və Kəşmir üzrə Təmas Qrupunun növbəti iclasında iştirak edib

BMT Baş Assambleyasının 73-cü sessiyasının ümumi müzakirələri çərçivəsində İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Cəmmu və Kəşmir üzrə Təmas Qrupunun növbəti iclası keçirilib.

İclasda çıxış edən Elmar Məmmədyarov Cəmmu və Kəşmir məsələsinin beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsində BMT-nin əsas orqanı olan Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həll edilməli olduğunu qeyd edib. Nazir BMT Nizamnaməsinin 25-ci maddəsinə istinad edərək həm işğal edilmiş Azərbaycan əraziləri, həm də Cəmmu və Kəşmir məsələsi ilə bağlı qəbul edilmiş qətnamələrin bütün dövlətlər tərəfindən yerinə yetirilməli olduğunu vurğulayıb.

Cəmmu və Kəşmir məsələsi ilə əlaqədar BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 39 saylı (17 yanvar 1948-ci il) və 47 saylı (21 aprel 1948-ci il) qətnamələrə, eləcə də həmin qətnamələrə əsasən təsis edilmiş BMT-nin Hindistan və Pakistan üzrə Komissiyasının 13 avqust 1948-ci il tarixli və 5 yanvar 1949-cu il tarixli qətnamələrinə əsasən, Cəmmu və Kəşmir bölgəsinin yekun statusu BMT-nin himayəsi altında həmin bölgənin bütün sakinlərinin iştirakı ilə keçiriləcək ümumxalq səsverməsi ilə müəyyən edilməlidir.

Qeyd edək ki, İƏT-in Cəmmu və Kəşmir üzrə Təmas Qrupu İƏT xarici işlər nazirlərinin 1994-cü ilin sentyabr ayında İslamabad şəhərində keçirilmiş 7-ci növbədənkənar sessiyasının qərarına əsasən təsis edilib. Azərbaycan qrupa 2013-cü ildə üzv olub. Hazırda qrupa Azərbaycanla yanaşı, Pakistan, Səudiyyə Ərəbistanı, Türkiyə və Niger daxildir.

# Əli LARİCANİ: "Azərbaycan Prezidenti İlham Əliyev uğurlu xarici siyasət aparır"

İran və Azərbaycan xalqları ortaq tarixə, mədəniyyətə, dinə, adət-ənənələrə malikdirlər. Bu amillər dövlətlər arasındakı əlaqələrin daha da yaxınlaşmasını şərtləndirir.

Bu sözləri AZƏRTAC-ın müxbirinə müsahibəsində İran İslam Şurası Məclisinin (parlament) sədri Əli Laricani deyib. Əli Laricani Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə görüşünü xatırlayaraq onun görkəmli dövlət xadimi olduğunu və Azərbaycan üçün böyük işlər gördüyünü bildirib. Qeyd edib ki, Heydər Əliyev hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışarkən İrana səfər edib. Məhz Heydər Əliyevin səfərindən sonra İran-Azərbaycan münasibətləri mehriban qonşuluq xarakteri almağa başladı. Sonra Heydər Əliyev Azərbaycanın Prezidenti seçildi və İran ilə münasibətlər inkişaf mərhələsinə qədəm qoydu.

İran parlamentinin sədri Prezident İlham Əliyevin uğurlu xarici siyasət yürütdüyünü nəzərə çatdırıb. Qeyd edib ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanın Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinə qoşulması müdrik addımdır. Bu dəhliz vasitəsilə Azərbaycan Fars körfəzi sahillərinə çıxış əldə edəcək. Region ölkələrindən İrana daxil olan ixrac malları məhz Azərbaycan ərazisindən keçməklə Rusiya və Avropaya daşınacaq. Bu isə həm ölkələrimiz arasındakı əlaqələrin, həm də milli iqtisadiyyatın inkişafına güclü təkan verəcək.

Azərbaycan Prezidenti haqqında fikirlərini davam etdirən Əli Laricani Xəzər dənizinin hüquqi statusunu müəyyən edən konvensiyanın imzalanması zamanı da İlham Əliyevin müdrik addım atdığını diqqətə çatdırıb. Vurğulayıb ki, Azərbaycan Prezidenti Xəzər dənizində sahilyanı dövlətlərdən başqasının hərbi iştirakına razılıq vermədi və bununla da Xəzər sülh və dostluq dənizi oldu.

Əli Laricani deyib ki, bu gün İran-Azərbaycan münasibətləri səmimiyyətə və qarşılıqlı etimada əsaslanır. Üçüncü qüvvənin bu mehriban münasibətlərə müdaxilə etməsinə imkan vermək olmaz.

# Azərbaycan ilə Çin arasında hərbi-texniki sahədə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub



Sentyabrın 26-də "ADEX 2018" Üçüncü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi çərçivəsində müdafiə naziri general-polkovnik Zakir Həsənov Çinin hərbi sənaye kompleksinə daxil olan "Poly Technologies" korporasiyasının vitse-prezidenti Liu Jianminin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə regional təhlükəsizlik və Azərbaycan ilə Çin arasında hərbi və hərbi-texniki sahədə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə Monteneqro Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib

Bakıda Azərbaycan və Monteneqro Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin birinci mərhələsi baş tutub. Nümayəndə heyətlərinə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Xələf Xələfov, Monteneqro tərəfindən isə Xarici İşlər Nazirliyinin dövlət katibi Zoran Yankoviç rəhbərlik ediblər. Bu barədə AZƏRTAC-a Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

X.Xələfov məsləhətləşmələrin keçirilməsini təqdirəlayiq hal kimi dəyərləndirərək gələcəkdə mütəmadi xarakter alacağına və ikitərəfli əlaqələrə təkan verəcəyinə dair ümid ifadə edib. Dövlət başçıları arasındakı dialoqun yüksək səviyyədə olduğunu vurğulayan X.Xələfov ikitərəfli münasibətlərin təşviqi üçün XİN-lər tərəfindən də müvafiq töhfənin veriləcəyinə inamını bildirib.

Z.Yankoviç iki ölkə arasında mövcud siyasi münasibətlər və qarşılıqlı anlaşma barədə həmkarının fikirlərini bölüşdüyünü, müxtəlif formatlarda, o cümlədən parlamentlərarası əlaqələr, müvafiq nazirliklər və qurumlar arasında dialoqun intensiv və səmimi xarakter daşıdığını diqqətə çatdırıb. İqtisadi əlaqələrə toxunan qonaq Azərbaycanın 2017-ci ilin nəticələrinə görə Monteneqroya sərmayə qoyuluşunun həcmi baxımından üçüncü ölkə olduğunu vurğulayıb. O, Azərbaycanla əməkdaşlığın daha da inkişaf etdirilməsində maraqlı olduğunu deyib və bu məqsədlə Monteneqro hökumətinin Bakıda diplomatik nümayəndəliyin açılması barədə siyasi qərar qəbul etdiyinə dair məlumat verib. Həmçinin qonaq Monteneqro Baş nazirinin ölkəmizə nəzərdə tutulan səfəri ilə bağlı müvafiq işlərin aparılmasından bəhs edərək adıçəkilən səfərin ikitərəfli münasibətlərin inkişafına təkan verəcəyinə ümidvar olduğunu diqqətə çatdırıb.

X.Xələfov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında ətraflı məlumat verərək Ermənistanın yeni rəhbərliyinin də sələfləri kimi beynəlxalq hüquqa, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin tələblərinə məhəl qoymayaraq, işğalçılıq siyasətindən çəkinmədiyini, əksinə, daha aqressiv ritorika ilə çıxış etdiyini xüsusi qeyd edib. Dünya ictimaiyyəti, habelə ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən Ermənistana təzyiqin artırılmasının vacibliyini vurğulayıb. Mövcud münaqişənin ölkəmizin suverenliyinin, ərazi bütövlüyünün bərpa olunması və sərhədlərinin toxunulmazlığı əsasında nizama salınmasının zəruriliyinə diqqət çəkib.

Görüşdə həmçinin beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin göstərilməsinə, ölkələr arasında müqavilə-hüquq bazasının genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb, o cümlədən qarşılıqlı maraq kəsb edən digər regional və beynəlxalq məsələlər müzakirə edilib.

# Mərmiatan snayper, aviasiya bombası, avtomatik top, "Tufan" zirehli maşını, Kamikadze PUA, "Vaşaq"...

## Hərbi arsenalımız yerli istehsal olan, ən müasir texnologiyalara əsaslanan yeni silah və texnikalarla zənginləşir

**Bütün sahələrdə inkişafını təmin edən Azərbaycanın yeganə problemi torpaqlarının bir hissəsinin işğal altında olmasıdır. Ona görə dövlətimizin təbii olaraq diqqət yetirdiyi məsələlərdən biri ordu quruculuğudur.**













Görülən tədbirlər nəticəsində son illərdə Azərbaycanın hərbi qüdrəti durmadan artmış və Silahlı Qüvvələrimiz regionda peşəkarlıq, təchizat və döyüş qabiliyyəti baxımından ən güclü orduya çevrilmişdir. Bu gün Silahlı Qüvvələrimizin beynəlxalq reytinqlərə görə dünya miqyasında 50 ən güclü ordu sırasında olması hər birimizdə dərin qürur hissi doğurur.

### 1200 adda məmulat

Ordumuzun balansında dünyanın ən müasir silah-sursatları və hərbi texnikaları var. Hərbi qüdrətini son illərdə dəfələrlə artıran Azərbaycanın bununla yanaşı, ən mühüm uğurlarından biri də ölkədə mükəmməl hərbi sənaye kompleksinin yaradılmasıdır.

Bunun nəticəsidir ki, artıq respublikamız dünyada müasir və keyfiyyətli hərbi təyinatlı məhsulların istehsalçısı kimi tanınır. Azərbaycan istehsalı olan hərbi məmulatlar respublikamızın Silahlı Qüvvələri ilə yanaşı, bir sıra xarici ölkələrin ordularının da silahlanmasına qəbul edilir.

Hazırda Azərbaycanda 58 müdafiə sənayesi müəssisəsi fəaliyyət göstərir. Yarandığı 2005-ci ildən başlayaraq, böyük inkişaf yolu keçən ölkəmizin müdafiə sənayesində 1200 adda məmulat istehsal olunur. 2009-cu ildən başlayaraq Azərbaycanın müəssisələrində istehsal olunan məhsullar xaricdə keçirilən beynəlxalq müdafiə sərgilərində də nümayiş olunur.

Sentyabrın 25-də Bakı "Expo" Mərkəzində açılışı olan "ADEX-2018" Beynəlxalq müdafiə sərgisi Azərbaycanın müdafiə sənayesinin qüdrətinin növbəti nümayişi oldu. Artıq üçüncü dəfədir təşkil olunan sərgidə bu dəfə dünyanın 29 ölkəsini təmsil edən 224 şirkət iştirak edir.

Regionda ən böyük silah və hərbi texnika ekspozisiyalarından ibarət olan genişmiqyaslı bu tədbir dünyanın tanınmış hərbi sənaye komplekslərinin müasir silah və avadanlıqları ilə yanaşı, Azərbaycanın da müdafiə sənayesi kompleksinin gücünün və qüdrətinin nümayişi üçün geniş imkanlar açır. Təsadüfi deyil ki, sərgidə Azərbaycan istehsalı olan hərbi məhsullara maraq kifayət qədər böyükdür. Ölkəmiz sərgidə 270-dən artıq hərbi məmulatla təmsil olunur.

### Mərmisini 6 km-lik hədəfə atan snayper

Müasir silah və texnikanın, habelə milli müdafiə sahəsində Azərbaycanın gücünün və qüdrətinin böyük nümayişinə çevrilən sərgidə son illərdə ölkəmizdə istehsal olunan yüngül və ağır hərbi texnikalar nümayişə çıxarılıb. Onlardan bəziləri isə ilk dəfədir ki, nümayiş etdirilir.

Ölkəmizin nümayiş etdirdiyi yeni hərbi məmulatlardan biri snayper silahıdır. Bu silahın ənənəvi snayper tüfənglərindən fərqi odur ki, patron deyil, mərmi atır. Silahın atdığı mərmi 6 kilometr uzağa gedir, 2 kilometri isə dəqiq vura bilir. 23x115 mm ölçülü snayperin çəkisi 34 kiloqramdır. Yaxın vaxtlarda silah sınaqdan keçiriləndən sonra Azərbaycan Silahlı Qüvvələrinin istifadəsinə veriləcək.



### Xüsusi təyinatlılar üçün snayper

Sərgidə Azərbaycanın nümayiş etdirilən digər snayper silahı isə xüsusi təyinatlılar üçün nəzərdə tutulur. 11 kq ağırlığında olan silahın atış məsafəsi 1500 metrdir. Digər snayper tüfəngləri ilə müqayisədə lüləsi qısa, çəkisi isə azdır. Dəqiq atəşlə bir güllə ilə hədəfi vurmaq mümkündür. Sınaqdan keçiriləndən sonra bu silah da Silahlı Qüvvələrimizdə istifadəyə veriləcək.

### Çəkisi yüngül, zərbəsi öldürücü snayper

Azərbaycanın nümayiş etdirdiyi yeni silahlarından biri də "Vaşaq" snayperidir. Hələlik sınaq mərhələsində olan snayperin vuruş məsafəsinin taktiki göstəricisi 1200 metr olsa da, 1500 metrə qədər hədəfi vura bilər. Fərdi şəkildə atış üçün nəzərdə tutulan silah 1500 metrlik məsafədən 30 sm-lik hədəfə dəqiq atəş aça bilir. 8,6x70 mm ölçülü snayperin çəkisi 6,5 kiloqramdır.

### 15 tonluq yeni zirehli maşın

Sərgidə nümayiş etdirilən və yaxın vaxtlarda Azərbaycan Silahlı Qüvvələrinin istifadəsinə veriləcək "Tufan" zirehli maşını da ölkəmizin hərbi sənayesinin son nailiyyətlərindən biridir. Ümumi çəkisi 15 ton olan texnikanın məmulat yükü 12 ton, faydalı yükü isə 3 tondur.

"ADEX-2018" sərgisində Azərbaycanın ilk dəfə olaraq nümayiş etdirdiyi yeni hərbi məmulatlarından biri də avtomatik top odlu silahdır. Bu silah avtomatik tezlikdə 500-dən az olmayaraq, yavaş templə isə 300 mərmi atır. 30 millimetrlik avtomatik top "AT30" adlandırılır. Silahın çəkisi 115 kiloqram, təpmə qüvvəsi 40-50 kq/gücdür.

### "QFAB-250 LG" aviasiya bombası

Azərbaycan yeni aviasiya bombasının da istehsalına başlayıb. "QFAB-250 LG" adlanan bombanın çəkisi 250 kiloqramdır. Lazer nişangahlı qəlpəli-fuqaslı aviasiya bombasının uçuş məsafəsi 12 min metrdir. Bomba düşdüyü yerdən 10 metr kənara qəlpə verir. Bombanın uzunluğu 3300 mm, diametri 240 mm-dir. Türkiyənin Aselsan" şirkəti ilə müştərək hazırlanan bomba sınaqdan sonra istifadəyə veriləcək.

### "Yarasa"

Azərbaycan Milli Elmlər Akademiyasının Yüksək Texnologiyalar Parkı da sərgidə iştirak edir. Yüksək Texnologiyalar Parkının istehsal etdiyi pilotsuz uçuş aparatı (PUA) sərgidə böyük maraqla qarşılanıb. Kamikadze tipli PUA-nın çəkisi 12 kiloqramdır. Kamikadze 5 kiloqram yüklə 2 min metr hündürlüyə qalxa və düşmən obyektlərinin xəritəsini çəkib oranı dəqiqliklə məhv edə bilir. PUA-nın maksimal sürəti 160 km/saatdır. Müşahidə kamerası ilə obyekti müşahidə edəndən sonra uçan aparat özünü obyektə çırparaq partladır. PUA-nın digər üstünlüyü isə odur ki, getdiyi istiqamət üzrə obyekti müəyyən etmədikdə, partlamadan geri qayıdır. Yeni sınaqdan keçirilən kamikadze tipli PUA "Yarasa" adlanır. Pilotsuz uçuş aparatı yaxın günlərdə Azərbaycan Silahlı Qüvvələrinin istifadəsinə veriləcək.

Göründüyü kimi, Azərbaycanın hərbi sənaye müəssisələri beynəlxalq standartlara cavab verə biləcək məhsul istehsal etmək potensialına sahibdir. Bu nailiyyətlər istehsal edilən rəqabətə davamlı məhsulların tək ordumuzun arsenalına deyil, dünya bazarına çıxarılmasına da şərait yaradır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Erməni KİV: "İlham Əliyev bizə uğursuz dövlət deməkdə tam haqlıdır"

## Ermənistan mətbuatı və ekspertləri işğalçı ölkənin xilasının Dağlıq Qarabağ münaqişəsinin həllindən keçdiyini açıq şəkildə bildirirlər

*Əvvəli 1-ci səh.*

### "Azərbaycanın siyasəti Ermənistanın çöküşünü sürətləndirir"

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan da uzun müddətdir ki, işğalçı ölkəyə çox aydın şəkildə Ermənistanın xilasının Dağlıq Qarabağ münaqişəsinin həllindən keçdiyini açıq şəkildə bildirir. Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclasda çıxışı zamanı bu mövzuya toxunan Prezident İlham Əliyev bildirib: *"Ermənistan işğalçılıq siyasətinə görə böhran, tənəzzül içindədir. Rəsmi statistikaya görə orada yoxsulluq 30 faizə, amma real vəziyyətdə 50 faizə çatır. Kütləvi işsizlik, depopulyasiya, insanların kütləvi şəkildə köçü baş verir. İqtisadi inkişaf üçün heç bir əsas yoxdur. Heç kim investisiya qoymaq istəmir, bazar məhduddur, xarici bazarlara çıxış yoxdur. Bu mövcud problemlər, üstə gəl onların işğalçılıq siyasəti faktiki olaraq əvvəlki kriminal rejimin çökməsinə gətirib çıxardı. Amma biz görürük ki, indi yeni hökumət də eyni yolla getmək istəyir. Bu ağır, çətin vəziyyətdən xilas üçün Ermənistanın yeganə yolu var, o da bizim torpaqlarımızdan çıxmaqdır. Ondan sonra onların inkişafı üçün şərait yaradıla bilər".*

Beləliklə, Azərbaycan seçim üçün Ermənistana şans verir. "Jamanak" qəzeti də qeyd edir ki, Ermənistanın təcrid vəziyyətdə qalaraq inkişaf etməsi mümkünsüzdür və ötən zaman bunu çox aydın göstərib. Bir sözlə, Azərbaycanın siyasəti Ermənistanın çöküşünü sürətləndirir: "İlham Əliyev bizə uğursuz dövlət deməklə tam haqlıdır. Ölkədə sosial-iqtisadi tənəzzül dərinləşir, yüksək səviyyədə verilən vədlərə baxmayaraq, maddi rifah halı çox aşağıdır. Müharibə vəziyyətində olduğumuz Azərbaycan bu mənada iqtisadi inkişafını əsas gətirərək açıq bəyan edir ki, Ermənistanla müqayisədə çox irəlidədir. Əslində, real vəziyyət və beynəlxalq qiymətləndirmələr də bunu göstərir. Hər halda, Yerevanın məsələyə indi daha ayıq başla baxması lazımdır. Əks təqdirdə, Azərbaycanın Ermənistanı təcrid siyasəti ölkəyə yeni böyük zərbələr vurmaqda davam edəcək".

### "Ermənistan tərəfinin informasiya siyasəti çox zəifdir"

İnformasiya təhlükəsizliyi məsələləri üzrə ekspert Samvel Martirosyan isə sosial-iqtisadi müstəvi ilə yanaşı, məsələnin başqa tərəfinə də nəzər salır. O, bütün sahədə, o cümlədən informasiya sahəsində ölkəsinin artıq güclü Azərbaycana uduzan tərəf olduğunu vurğulayır. Qeyd edir ki, Ermənistanla Azərbaycan arasındakı informasiya mübarizəsində Ermənistan tərəfinin informasiya siyasəti çox zəifdir.

Ekspert bildirib ki, Ermənistanın informasiya siyasətini "dondurulmuş" hesab etmək olar: "Blokada vəziyyəti ilə əlaqədar iqtisadiyyatı çökən və ölkəni talamış Sarkisyan rejiminin uzun illər hakimiyyətdə qaldığı Ermənistan rəsmi Bakı ilə bərabər informasiya mübarizəsi aparmaq iqtidarında deyil".

Martirosyan vurğulayıb ki, 2016-cı il aprel döyüşləri bu sahəyə böyük təsir göstərdi və bəzi məsələlərin təkrar nəzərdən keçirilməsinə səbəb oldu.

### "Azərbaycan Qarabağ məsələsini güc yolu ilə həll etməyə hazırdır"

Ermənistanın "Armenian-report" saytı isə bildirir ki, Yerevanın diqqət yetirməli olduğu məqamlardan biri də Azərbaycanın hərbi gücüdür. Saytda Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclasda çıxışı zamanı Prezident İlham Əliyevin fikirlərinə də diqqət yetirilir: "Dağlıq Qarabağ heç vaxt Azərbaycanın suverenliyindən kənarda heç bir status almayacaq. Heç vaxt Azərbaycan xalqı və dövləti imkan verməyəcək ki, onun əzəli, tarixi, hüquqi torpağı ondan ayrılsın. Qoy, Ermənistan bu xülyalarla yaşamasın. Qoy, Ermənistan rəhbərliyi öz xalqını aldatmasın. Biz bütün imkanlardan istifadə edirik və edəcəyik ki, ərazi bütövlüyümüzü bərpa edək və bu istiqamətdə çox önəmli addımlar atılmışdır".

Sayt yazır ki, Azərbaycan hərbi cəhətdən indi özünü daha rahat hiss edir və Qarabağ məsələsini güc yolu ilə həll etməyə hazırdır. Bildirilir ki, Azərbaycandan fərqli olaraq erməni ordusunda vəziyyət getdikcə ağırlaşır, hərbçilərə lazımi diqqət yetirilmir. Buna sübut kimi məlum aprel döyüşlərində Azərbaycan Ordusunun keçirdiyi uğurlu hərbi əməliyyatlar zamanı Ermənistan silahlı qüvvələrinin ağır yaralanaraq ciddi zədələr alan əsgəri Ovannes Poqosyanın durumu göstərilir.

O, artıq 4 aydır 1 nömrəli "Qeraçi" xəstəxana kompleksində yerləşən "Vətən müdafiəçilərinin reabilitasiya mərkəzi"ndə müalicə almağa buraxılmır. Ovannesin anası Qayane Asatryanın sözlərinə görə, 2016-cı ilin aprelində başından və ayağından ağır güllə yarası alan oğlu dövlətin nəzarətindən kənar qalıb. Müdafiə Nazirliyi və digər icra orqanları isə onların müraciətinə cavab vermir: "Mərkəzin direktoru Aykui Minasyan oğlumun müalicəyə götürülməməsini guya kifayət qədər yerlərinin olmadığı ilə əsaslandırır. Artıq 4 aydır gözləyirik ki, nə vaxt yer boşalacaq. Bu cür ağır yaraları olan oğlum üçün belə uzun müddət gözləmək yolverilməzdir. Çünki oğlumun əzələ sisteminin hərəkətliliyinə pis təsir edir. Onun sağ əli işləmir və sağ ayağını güclə tərpədir. Mənə dedilər ki, növbəyə yazılın və gözləyin, biz özümüz sizə zəng edəcəyik. Təsəvvür edirsinizmi, "vətən" üçün öz sağlamlığını qurban verən insan xəstəxanaya düşə bilmir. Cəbhədə yaralanan və sonra müalicə ala bilməyən bu cür əsgərlərimiz çoxdur. Onlar hamısı, eləcə də mənim oğlum dövlətin nəzarətindən kənarda qalıblar".

### "Aprel döyüşləri qorxunc xatirələrdir, heç yadıma salmaq belə istəmirəm"

Qeyd edək ki, Ovannes Poqosyan Ermənistanın "Şücaətə görə" medalı ilə təltif edilib. Anası isə 23 yaşlı yaralı oğlunun quru medallara yox, dövlətin qayğısına ehtiyacı olduğunu bildirib. Hətta vurğulayıb ki, prezidentlə görüşdə üzləşdikləri problemlər barəsində şikayət etməmələri barədə onlara xəbərdarlıq edilib. Erməni əsgərin özü isə jurnalistlərlə söhbətində aprel döyüşləri zamanı yaşadıqlarının bir daha təkrar olunmayacağına ümid etdiyini bildirib.

Ovannesin sözlərinə görə, hərbi əməliyyatlar zamanı ermənilər arasında heç bir koordinasiya olmayıb və komandirlər əsgərləri ön cəbhəyə göndərərək onlardan qalxan kimi istifadə ediblər. Döyüşlərdə onların ixtiyarına verilən hərbi texnikalar isə əsasən köhnəlmiş və istifadəyə yararsız vəziyyətdə olublar: "Qorxunc xatirələrdir, heç yadıma salmaq belə istəmirəm. O zaman yeməyə də heç nə tapmırdıq. Çox dəhşətli günlər idi".

Əsgər anasının şikayətini ictimailəşdirən erməni mediası yazır ki, Ermənistanda hakimiyyətin dəyişməsinə və yeni hökumətin əhaliyə vədlər verməsinə baxmayaraq, ordu rəhbərliyi döyüş və qeyri-döyüş şəraitində yaralanan və əlil olan hərbçilərə hələ də yardım etmir. Eyni zamanda, Ermənistanın Müdafiə Nazirliyi təhlükəli yerdə xidmət edən hərbçiləri xəstəlik tapan kimi təxris edir və onların müalicəsindən imtina edir.

Bütün bunlar fonunda media yazır ki, Ermənistan faktiki olaraq bütün sahələr üzrə Azərbaycana uduzur. Bu gedişlə ölkənin işğal siyasətini davam etdirməsinin mümkünsüzlüyü də xüsusi olaraq qabardılır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

Bu barədə düşünək

# AUTİZM ZİLLƏTİ

## Dünyada hər 88 uşaqdan birinin düçar olduğu bu sindrom Azərbaycanda da geniş yayılır

Onların öz dünyası var, heç bir çərçivəyə sığmazlar...

Öz dilləri, həyata öz baxışları var, sadəcə bir az bizdən fərqlidirlər...

Nəzərləri daim yayğındır, göz təmasından qaçırlar, bəzən də çox aqressivdirlər...

Bacarıqlıdırlar, zəkalıdırlar, istedadlıdırlar...

Amma bir ömür boyu sağalmaz dərdlə yaşamağa məhkumdurlar...

Autizmdirlər...

### Xoşbəxt olmaq istəyirdi, amma...

- Ana, su ver, su...

Qucağında qızdırmadan alışıb-yanan oğlunun parçalanıb, cadar-cadar olmuş dodaqlarına bir damcı su tökmək istəyir. Əlini irəli uzadıb lap yaxınlığındakı su dolu stəkanı götürməyə çalışır, amma barmağının kiçik bir toxunuşu ilə stəkan yerə dəyərək çilik-çilik olur...

Qırılan şüşənin ətürpədən xırçıltısı oyadır onu bu kabusdan. Qan-tər içində hövlnak yerindən sıçrayıb qaranlıqda acı gerçəkliklə yenidən üz-üzə qalır. İllərdir ki, gecə-gündüz anasını haraylayan bir uşağın səsi getmir qulağından...

16 ildir ki, oğlunun bir qığıltısına, bir səsinə həsrət qalıb. Saatlarla balası ilə göz-gözə baxır, amma elə hey susurlar...

2 övladı autizm xəstəsi olan Arifə xanım ürək dağlayan hekayətini qəzetimizə danışır... 17 yaşında yaxın qohumu ilə ailə qurub. Hər kəs kimi o da xoşbəxt olmaq istəyib, amma övladlarının 4-nün də xəstə olması onu bu xoşbəxtlikdən məhrum edib: "Böyük oğlumun 16 yaşı var, amma öz yaşıdlarından geri qalıb, nə danışa, nə də müstəqil hərəkət edə bilir, autizm xəstəsidir. İkinci qızım da bu xəstəlikdən əziyyət çəkir, amma oğluma nisbətən yüngül formadadır. Digər qızım talassemiyadır, lap kiçiyinin isə gözü zəifdir. Həyat yoldaşım Qarabağ müharibəsi əlilidir. Uşaqların müalicəsi üçün Heydər Əliyev Fondu bizi Psixi Sağlamlıq Mərkəzinə göndərdi, onlara çox minnətdarıq. Rayonda yaşayırıq və orada reabilitasiya mərkəzi yoxdur. Məcburam ki, gəlib Bakıda kirayə yaşayaraq, burada uşaqlarımın müalicəsi ilə məşğul olam. Çox çarəsizəm..."

Və o, barmaqlarını köksünə sıxaraq daha nəsə demək istəyir, amma sözlər qəhərlənib boğazında düyünlənir, yanağından muncuq kimi axan yaş damlaları kip bağlanmış dodaqlarını isladaraq, sinəsi aşağı tökülür...

Gözlərindəki iztirabı görmək o qədər ağır olur ki, söhbətimizi bitirmək məcburiyyətində qalırıq...

### Dünyada hər 54 oğlan uşağından biri autizm riski daşıyır

ABŞ Səhiyyə Nazirliyi tərəfindən bütün dünya üzrə aparılan araşdırmaya əsasən hər 88 uşaqdan biri autizmdir. Oğlan uşaqlarında rast gəlinmə sayı qız uşaqlarına nisbətən daha çoxdur. Statistikaya əsasən hər 54 oğlan uşağından biri autizm risqi daşıyır. Qonşu Türkiyədə bununla bağlı aparılan araşdırmalara görə, 550 min insanın autizm olduğu bildirilir ki, onlardan da 18 yaşa qədər olanların sayı 140 mindir. Qeyri-rəsmi statistikada isə bu rəqəmin 1 milyona yaxın olduğu bildirilir.

"Autizm" terminini elmi ədəbiyyata 1910-cu ildə isveçrəli psixiatr Eyqen Bleyler gətirib. Bu termin yunan sözü olan "autos"dan (özüm) əmələ gəlib. Daha sonra Amerika psixiatrı Leo Kanner 1943-cü ildə erkən uşaq autizminin təsvirini verib. Autizm üç yaşından əvvəl başlayan və ömür boyu sürən, ictimai qarşılıqlı təsirə və ünsiyyətə zərər verən, məhdud və təkrarlanan davranışlara gətirib çıxaran beyinin inkişafına maneə törədən bir sindromdur.

Bəzi fərziyyələrə əsasən, məşhur insanlardan bir çoxu autizm olub. Onların arasında Çex yazıçısı Frans Kafkanın, avstraliyalı bəstəkar Anton Braynkler, rus rəssamı Vasili Kandiniskinin adları çəkilir.

### Getdikcə artan dəhşətli statistika

Bütün dünyada olduğu kimi ölkəmizdə də bu sindromdan əziyyət çəkən insanlar var. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2017-ci ilin sonuna qədər 17 yaşadək müalicə-profilaktika müəssisələrində uşaq autizmi diaqnozu ilə qeydiyyatda olan xəstələrin sayı 475 nəfər olub. Ümumilikdə oğlanların sayı 379, qızların sayı isə 96 nəfər təşkil edir.

Bu sindromun müalicə-reabilitasiyasının hansı formada həyata keçirildiyini öyrənmək üçün müraciət etdiyimiz Psixi Sağlamlıq Mərkəzində həm ürəkdağlayan, həm də maraqlı faktlarla tanış olduq.

Mərkəzin həkim-psixiatrı Nəzirə Zeynalova deyir ki, son zamanlar Azərbaycanda autizmli uşaqların sayı artıb. Hətta gün ərzində qəbul etdiyi 10 xəstədən 6-sı autizmli olur. Bu sindroma əsasən oğlanlarda daha çox rast gəlinir: "32 ilin həkimiyəm. Yaxşı yadımdadır ki, tələbə vaxtlarımda bu cür uşaq görəndə bir-birimizə nadir nümunə kimi göstərirdik. Son zamanlar isə, xüsusilə də axır 2-3 il ərzində autizmli uşaqların sayı çox artıb. Sindromun yaranması ilə bağlı müxtəlif fərziyyələr olsa da, dəqiq səbəbi hələlik məlum deyil. Ola bilsin ki, bu multifaktor, etioloji xəstəlikdir. Burada çox faktorlar rol oynayır. Ehtimallardan biri odur ki, uşaqda ana bətnində, yaxud da doğuş zamanı hansısa zədə olub. Oksigen çatışmazlığı, travma, ananın keçirdiyi müəyyən xəstəlik və hazırda bununla bağlı qəbul etdiyi dərmanlar da səbəb kimi göstərilir. Buna baxmayaraq statistika göstərir ki, sağlam doğulan uşaqlarda da müəyyən vaxt keçdikdən sonra bu xəstəlik özünü büruzə verə bilər".

### Hələlik bu sindromun müalicəsi yoxdur

Həkim məlumat verir ki, autizm uşaqlarda əsasən 3 yaşından sonra özünü büruzə versə də, bəzilərində bu daha da erkən yaşda müşahidə olunur. Onlarda ünsiyyət problemi yaranır. Hətta bəzilərinin çox gözəl nitq qabiliyyəti olsa da, ətrafla ünsiyyət qurmur, heç bir reaksiya vermir, biganə olur, göz kontaktından qaçır: "Hələlik autizm sindromunun müalicəsi yoxdur. Sadəcə olaraq simptomatik müalicə gedir. Valideynin şikayəti əsasında müəyyən dərman müalicəsi aparılır. Əksər vaxtı psixopedaqoji yanaşma lazım olur. Burada loqopedik, psixopedaqoji məşğələlər, idman, masaj və sair nəzərdə tutulur. Bu sahədə nailiyyətlər də əldə etmək olur.

Xəstəyə bu diaqnozu təkcə psixiatr qoymur. Uşaq yoxlamaya gələndə psixoloq, loqoped, pedaqoqlardan ibarət bir komanda onu test və müşahidə yolu ilə aşkar edirlər".

### Onlar gələcəkdə valideyn ola bilər, lakin...

Autizmli uşaqlar fiziki cəhətdən çox sağlam olurlar. Həkimlərə valideynlərin ən çox verdikləri sual isə - "övladım gələcəkdə valideyn ola bilərmi" sualıdır.

Həkimlərin isə buna birmənalı cavabı yoxdur. Nəzirə Zeynalovanın fikrincə, bu, autizmli uşağın vəziyyətindən asılıdır: "Onda orta, ağır dərəcəli bir əqli qüsur varsa, yaxud da ki, özü-özünü idarə edə bilmirsə, belə vəziyyətdə problemlidir. Amma elə uşaqlar var ki, bir neçə dil bilir, özünü idarə edir, hansısa başqa nailiyyətləri olur və hesab edirəm ki, bu uşaqlar gələcəkdə valideyn ola bilər. Ola bilsin ki, hazırda bizə bu məsələlər problem kimi görünür, amma vaxt gələcək hansısa tibbi nailiyyət autizmli uşaqlara kömək olacaq və onlar bu problemdən əziyyət çəkməyəcəklər".

### Autizmli uşaqların valideynlərinin ciddi psixoloji dəstəyə ehtiyacı var

Həkimin sözlərinə görə, uşağa diaqnoz qoyulduqda valideynlərin emosional reaksiyaları olur. Ona görə də uşaq psixiatrları birinci növbədə valideynlərlə işləyir, onları reabilitasiyaya dəvət edirlər: "Elə ailələr olur ki, onların reabilitasiyası çox çətin olur, yaxud elə ailələr var ki, xəstəliyə görə dağılır. Biz ilk növbədə valideynləri maarifləndiririk, ümid veririk, onların özlərinə antidepresant, psixoloq məsləhətləri təklif edirik".

Məqsəd isə odur ki, bu uşaqlar cəmiyyətə inteqrasiya olunsun, məktəbdə sağlam uşaqların içərisində təhsil alsınlar. Nəzirə Zeynalovanın sözlərinə görə, bəzi autizmli uşaqlarda fitri istedad, yaradıcılıq qabiliyyəti olur: "Elə autizmli uşaqlarımız var ki, onların Luvrda sərgiləri olub, bir neçə dil bilirlər, hətta onlar başqa problemli uşaqlara dil öyrədə bilərlər. Elə uşaqlar da var ki, musiqidə, idmanda uğurları var..."

### Onlar universitetdə də oxuya bilirlər, poliqlot da olurlar

Loqoped Aygün Ələkbərova bizimlə söhbətində söylədi ki, autizm sindromlu uşaqlar bir-birindən fərqlənir və hərəsi özünə məxsusdur. Normal şüurlu, yaxud intellektual ləngiməli uşaqlar var. Amma loqopedlər cüzi də olsa nitqi olan uşaqlarla işləyir: "Çünki elə uşaqlar var ki, onlarda ümumiyyətlə nitq olmur, yaxud nitqdən istifadə etmək istəmirlər. Daha çox jestə, əl hərəkətlərinə üstünlük verirlər. Bu cür uşaqları loqopedə yox, idmana, psixopedaqoqlara yönləndiririk".

Loqopedin sözlərinə görə, elə autizmli uşaqlar da var ki, onların autizm olduğunu hiss etmək olmur. Onu ancaq mütəxəssislər bilir ki, həmin uşaq öz nitqi ilə normal uşaqlardan cüzi fərqlənir. Nitqləri çox monotondur, emosiyasızdır, konkretdir, göz kontaktından qaçırlar, özlərinə çox meyillidirlər: "Bir də görürsən ki, bu cür uşaqlar unikal intellektə malik olur, poliqlotdurlar. Hətta bu dilləri öz ana dilindən mükəmməl bilirlər. Şüuru normal olanlar (onlara "aspergen" deyilir) həyatda uğur qazana bilirlər. Bu da autizmin növlərindən biridir. Onlar universitetdə də oxuya bilirlər, hansısa bir işdə də işləyə bilirlər".

### Şüuru normal olan autizmli uşaqlar mütləq adi məktəblərdə dərs almalıdır

Aygün Ələkbərovanın bir neçə tələbəsi hazırda birinci sinfə qəbul olunub. Onlar bütün sualları sərbəst cavablandırıblar və heç kəs hiss etməyib ki, o uşaqlar autizmdir: "Amma mütəxəssis diqqətlə nəzər yetirsə görə bilər. Çünki onlar göz kontaktından qaçır, yaxud eləsi var ki, öyrəşib çalışır göz kontaktı da qursun, diqqətini yetirir, çərçivədə hərəkət etməyə çalışır. Amma təklikdə qalanda özünə xas xüsusiyyəti yerinə yetirir. Deyək ki, yazanda dəftərə daha çox yaxınlaşır, rəngləyəndə çox daha diqqətli olur və sair".

Loqopedin fikrincə, şüuru normal olan autizmli uşaqlar mütləq adi məktəblərdə dərs almalıdır. Çünki onlara məhz bu lazımdır. Ola bilsin ki, bir müddət zəngin səsi, yaxud ətrafdan gələn hansısa xışıltılar ona narahatlıq versin. Amma zamanla buna öyrəşirlər.

### Özəl reabilitasiya mərkəzlərində qiymətlər çox bahadır...

Autizm artıq günümüzün acı gerçəkliyidir və ildən-ilə durmadan artır. Təbii ki, bu da öz növbəsində adıçəkilən sindroma düçar olanların müalicəsi üçün müəssisələrə və reabilitasiya mərkəzlərinə daha çox ehtiyac yaradır.

Bir neçə il əvvəl autizmli uşaqlarla bağlı müəssisələr elə də çox deyildi, amma hazırda ölkədə dövlət reabilitasiya mərkəzləri ilə yanaşı, özəl müəssisələr də fəaliyyət göstərir. Amma vətəndaşların özəl müəssisələrə müraciət etmələri baha başa gəlir. Övladları autizm olan valideynlərlə həmsöhbət olarkən onların əksəriyyəti də məhz bu problemdən şikayətləndilər.

Özəl reabilitasiya mərkəzlərinin bəziləri ilə əlaqə saxlayaraq qiymətlərlə maraqlandıq. Məlum oldu ki, qrup məşğələləri həftədə 3 dəfə, hər dəfə 3 saat yarım olmaqla aylıq 400 manata başa gəlir. Bura loqoped, psixoloq, idman qrup məşğələləri daxildir. Əgər valideyn uşağı ilə fərdi məşğul olunmasını istəyirsə, daha çox məbləğ ödəməlidir. Belə ki, həftədə 1 dəfə, 45 dəqiqəlik məşğələ 20 manatdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, 18 yaşınadək sağlamlıq imkanları məhdud uşaqlara, o cümlədən autizm xəstəliyi olan uşaqlara 82 manat məbləğində müavinət verilir. 18 yaşdan böyük autizm xəstələrində isə əlilliyin qiymətləndirilməsi zamanı psixi pozğunluğun səviyyəsi, xəstəliyin inkişaf dərəcəsi və xəstənin özünü idarə etməsi nəzərə alınaraq əlillik dərəcəsi müəyyənləşdirilir.

### "Alov qüllələri", Qız qalası da mavi işıqla işıqlanır

Hər il aprelin 2-si Ümumdünya Autizm günü kimi qeyd edilir. Məqsəd əhali arasında autizmlə əlaqədar maarifləndirməni artırmaq və autizmli insanların həyat keyfiyyətinin yaxşılaşdırılmasına kömək etməkdir.

Həmin gün dünyanın müxtəlif ölkələrində məşhur binalar autizmi simvolizə edən mavi rənglə işıqlandırılır. 2010-cu ildə ABŞ-da ilk dəfə həyata keçirilən "Mavi işıqla işıqlandır" layihəsi hazırda 6 qitə, 136 ölkə və 600 şəhəri əhatə edir. Azərbaycan bu layihəyə Heydər Əliyev Fondu və BMT-nin Uşaq Fondunun (UNİCEF) dəstəyi ilə 2012-ci ildə qoşulub. Aprel ayının 2-də Bakıda "Alov qüllələri", Qız Qalası, Bakı Kristal Zalı və digər binalar mavi rənglə işıqlandırılır.

### Onların öz dünyası var...

"Övladımın autizm olduğunu öyrənəndə onun 3 yaşı var idi" deyir, Xatirə xanım: "O gündən mən də dönüb oldum 3 yaşlı uşaq. Anaların bu sindroma mübtəla olmasını inadla rədd etdim. Bütün həyat yaşamımı ona uyğunlaşdırdım. Günlərlə nəinki bir söz, hətta bir hərf deməsi üçün dayanmadan pedaqoqlarla, psixoloqlarla çalışdım. İndi artıq 3-cü sinifdə digər həmyaşıdları ilə bərabər təhsil alır. Onlarla oynayır, qaçır, gülür..."

Hazırda ölkəmizdə autizmli övladı ilə bağlı bu cür düşünən, ona bütün çətinliklərində dayaq duran valideynlərin sayı kifayət qədərdir. Amma bunu bacarmayan valideynlər də var. Valideynlər üçün övladının autizm sindromuna mübtəla olmasını qəbul etmək nə qədər ağır olsa da erkən diaqnoz və müalicə ilə pozitiv nəticələr əldə etmək mümkündür. Təbii ki, bu cür uşağa sahib olmaq ailələrin zamanla emosional, psixoloji, maddi mənada çətinliklər yaşamasına səbəb olur, amma əldə olunacaq müsbət nəticəyə görə bütün bu sıxıntılara dözməyə dəyər...

*Onların öz dünyası var, heç bir çərçivəyə sığmazlar... Öz dilləri, həyata öz baxışları var, heç kəsin dediyinə tabe olmazlar... Düşünməyin ki, xəstədirlər, sadəcə bir az bizdən fərqlidirlər, qəribədirlər...*

*Bəlkə də onların baxışıyla biz bu həyatda qəribəyik, onlardan fərqlənirik, kim bilir?!.*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***






27 sentyabr Ümumdünya Turizm Günüdür

# Azərbaycana maraq artır

*140 ölkədən gələn milyonlarla əcnəbi ölkəmizin təbiətinə heyranlığını gizlətmir*



Əsrarəngiz təbiətli ölkəmiz tarix boyu səyyahların diqqətini cəlb edib. Qədim Azərbaycan ərazisindən keçən ticarət karvanlarının hərəkətini ilk səyahətlər hesab etmək olar. Bu da, əslində, turizmin "rüşeymləri" hesab edilib.

Mahiyyət etibarilə turizm bu gün dünyada bir neçə funksiyanın daşıyıcısı kimi qiymətləndirilir. Dünyada ilk turizm agentliyi 1841-ci ildə Tomas Kuk tərəfindən açılıb. 27 sentyabr tarixi isə Dünya Turizm Günü kimi qeyd edilir. 1970-ci il sentyabrın 27-də BMT-nin Ümumdünya Turizm Təşkilatının Nizamnaməsi qəbul olunub. On ildən sonra təşkilat həmin tarixin Ümumdünya Turizm Günü kimi qeyd olunması barədə qərar çıxarıb.

Bir sıra beynəlxalq qurumlarda təmsil olunan Azərbaycan 2001-ci ildən həmin təşkilatın üzvlərindəndir. Ölkəmiz 2013-cü ildən isə Dünya Turizm Təşkilatı İcraiyyə Şurasının üzvüdür. 2017-ci ildə isə Azərbaycan Dünya Turizm Təşkilatı İcraiyyə Şurasına sədr seçilib. Bu barədə qərar Şuranın Misirin Luksor şəhərində keçirilən 104-cü sessiyasında qəbul olunub. Azərbaycanın bu qurumun İcraiyyə Şurasının sədri seçilməsi Prezident İlham Əliyevin dəstəyi və təşəbbüsü ilə bu sahədə həyata keçirilən islahatların nəticəsidir. Beynəlxalq turizm məkanında qazandığımız nüfuz, eləcə də etimad Dünya Turizm Təşkilatının ölkəmizə olan etibarının göstəricisidir.

İlk dəfə 2003-cü il sentyabrın 26-da ölkəmizdə I Turizm Filmləri Festivalı keçirilib. 2005-ci ildən başlayaraq məşhur xarici televiziya kanallarında respublikamızın turizm potensialını əks etdirən reklam çarxları yayımlanır. 2006-cı ildə "Cənnət görmək istəyən Azərbaycana gəlsin" şüarı altında "Turizm aləmi" fotomüsabiqəsi də təşkil edilib.

Turizm sahəsində çalışanların peşə hazırlığının artırılması məqsədilə 2006-cı ildən ölkədə Turizm İnstitutu yaradılıb, onun nəzdində müxtəlif peşələr üzrə daimi fəaliyyət göstərən kurslar açılıb.

Dövlət müstəqilliyinin bərpasından sonra turizmin inkişaf tendensiyası ölkənin ali qanunvericilik aktlarında öz əksini tapıb. 1999-cu ildə Milli Məclisdə "Turizm haqqında" qanun qəbul edilib. 27 iyul 1999-cu ildə ulu öndər Heydər Əliyev "Turizm haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" fərman imzalayıb.

Zəngin mədəni-tarixi irsə, əlverişli təbii şəraitə malik olan Azərbaycanda turizm sektoru sürətlə inkişaf edir. 2011-ci il Prezident İlham Əliyev tərəfindən "Turizm ili" elan edilib. Ümumdünya Turizm Günü ölkəmizdə "Ümumrespublika Daxili Turizm Konfransı" keçirilib.

Dövlət başçısı İlham Əliyevin 2016-cı il sentyabrın 1-də imzaladığı sərəncama əsasən, 27 sentyabr həmçinin Azərbaycanda turizm işçilərinin peşə bayramı günü elan edilib. Xatırlatmaq yerinə düşərdi ki, BMT Baş Məclisinin 70-ci sessiyası 2017-ci ili dünyada "Beynəlxalq davamlı turizm ili" elan edib və rəsmi açılış mərasimi İspaniyanın paytaxtı Madriddə keçirilib. "Beynəlxalq davamlı turizm ili"ndə hərtərəfli və dayanıqlı iqtisadi inkişaf, sosial cəlbedicilik, məşğulluq və yoxsulluğun azaldılması, təbii ehtiyatlardan səmərəli istifadə, ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi, mədəni dəyərlər, müxtəliflik və irs, qarşılıqlı anlaşma, sülh və təhlükəsizlik məsələlərində turizmin rolu təşviq edilib.

1 milyon 235 min səyahətçinin ötən il beynəlxalq sərhədləri keçmə faktını diqqətdən kənarda saxlamaq olmaz. 2002-ci ildən başlayaraq Bakıda hər il keçirilən Beynəlxalq Turizm və "Ümumrespublika Daxili Turizm Sərgiləri"ndə minlərlə yerli və xarici turist iştirak edir.

"2009-2018-ci illərdə Azərbaycan Respublikasında kurortların inkişafı üzrə Dövlət Proqramı" ölkəmizdə yaxın gələcəkdə turizm-kurort sahələrinin planlı surətdə inkişaf etdirilməsinə və səmərəli istifadəsinə stimul verir. Zəngin tariximiz, mədəni və təbii irs dünyanın hər yerindən qonaqları ölkəmizə cəlb edir. "Vəhşi təbiət" - fauna və flora, mineral su qaynaqları, dünyada yeganə müalicə nefti olan - naftalan, nadir qədim memarlıq abidələri, özünəməxsus mədəniyyət, milli mətbəx və bir çox digər amillər Azərbaycanda turizmin bütün növlərinin, o cümlədən, işgüzar, idman, müalicəvi, tanışlıq, ovçuluq, ekzotik, çimərlik və hətta qastronomik turizmin inkişafı üçün hərtərəfli şərait yaradır.

Azərbaycanda turizm sahəsi gündən-günə inkişaf edir və artıq iqtisadiyyatın gəlir gətirən ən mühüm sahələrindən birinə çevriləcəyi şəksizdir. Regionlarda fəaliyyət göstərən Qafqaz mehmanxanalar şəbəkəsi, Qəbələdəki Gabaland attraksionlar parkı, Qusardakı möhtəşəm "Şahdağ" qış-yay turizm kompleksi həm idmanla məşğul olmaq, həm də turistləri qəbul etmək üçün müvafiq infrastruktura malikdir. 15-dən çox olimpiya idman kompleksini də bura əlavə etsək, daha real mənzərə yarada bilərik. Çünki həmin komplekslərdə də mehmanxanalar, istirahət zonaları, əyləncə və idman mərkəzləri fəaliyyət göstərir. Bütün bunlar, təbii ki, turizmin dövlət siyasətinin prioritetlərindən birinə çevrilməsi, eyni zamanda ölkənin iqtisadi inkişafı üçün böyük perspektiv deməkdir.

Yeri gəlmişkən yerli turizmin beynəlxalq əməkdaşlığına gəlincə, burada da kifayət qədər uğurlu layihələr icra edilir. Azərbaycanın turizm potensialının Almaniyanın eyni sahənin bazarında təbliğ və təşviq edilməsi məqsədilə "Aviareps Tourism" şirkəti ilə əməkdaşlıq uğurla davam etdirilir.

Ötən ilin yanvar ayından Almaniyanın 200 turoperatoru üçün onlayn seminarların keçirilməsi də ölkəmizin turizm potensialından daha səmərəli istifadə edilməsində, onun şəbəkələrinin genişləndirilməsində mühüm amil hesab edilir. Turizm yalnız iqtisadi inkişafı baxımından deyil, eyni zamanda xalqımızın milli-mənəvi dəyərlərinin təbliğində də mühüm vasitələrdən biri kimi diqqət mərkəzindədir.

Bir sözlə, dünya xalqlarının marağı Azərbaycana getdikcə artır. 140 ölkədən gələn əcnəbilər ölkəmizin inkişafına və gözəl təbiətinə heyranlığını gizlətmir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***



# Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri İmişlidə vətəndaşları qəbul edib

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə müvafiq olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam etdirilir, onların müraciət və təklifləri dinlənilir, operativ həlli üçün konkret tədbirlər görülür.

AZƏRTAC xəbər verir ki, Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə sentyabrın 26-da İmişlidəki Heydər Əliyev Mərkəzində İmişli, Füzuli, Beyləqan, Zərdab, Bərdə, Tərtər, Ağcabədi və Ağdam rayonlarından olan sakinləri və bu rayonlarda məskunlaşan qaçqın və məcburi köçkünləri qəbul edib.

Görüşdə vətəndaşlar ali və orta ixtisas təhsili müəssisələrinə qəbul, 2019-cu ildə tətbiqi nəzərdə tutulan ümumi təhsil pilləsində təhsil alanların yekun qiymətləndirilməsi (buraxılış) imtahanlarının və ali təhsil müəssisələrinə qəbul imtahanlarının modeli, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, namizədlərlə müsahibələrin keçirilməsi və digər məsələlərlə əlaqədar müraciətlər ediblər.

Qəbul zamanı DİM-in səlahiyyətlərinə aid olan bir çox məsələ yerindəcə həll edilib. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb.

# Azərbaycan-Ermənistan dövlət sərhədində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, sentyabrın 26-da Azərbaycan və Ermənistan dövlət sərhədinin Gədəbəy rayonu istiqamətində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçiriblər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Gennadi Petrika və Mixail Olaru aparırlar.

Maarif xadimləri

# Müəllim şəxsiyyəti



Azərbaycan xalqının tarix boyu böyük maarifpərvərləri olub. Cəmiyyətimiz bugünkü inkişafına görə zamanında insanlarımız üçün təhsil ocaqları açan, ömrünü Vətən övladlarının təlim-tərbiyəsi yolunda şam kimi əridən maarif xadimlərinə borcludur. Belələri millətin xilasını, intibahını haqlı olaraq elm və təhsildə görür, əzmkar axtarışları ilə çoxlarının bəhrələnəcəyi maarifçilik irsi və bütöv bir məktəb yaradırlar. Bəşəriyyətin qurtuluşuna yönələn ali idealları yaşatmağa, mənəvi meyarların cəmiyyətdə hakim olmasına çalışan bu irfan sahibləri üzərlərinə götürdükləri müqəddəs missiya ilə həm də ucalığa qovuşurlar.

## Ömür yolunu işıqlandıran şəfəq

Bu müqəddəs yol indi də davam edir. Azərbaycan müəllimi adını ləyaqətlə daşıyan yeni-yeni simalar nurlu şəxsiyyətləri ilə gənc nəslin taleyinə işıq salır, Tanrının yazdığı ömür qisməti bitən zamansa Yer üzündəki şərəfli missiyalarını öz ardıcıllarına əmanət edib əbədiyyətə qovuşurlar. "Şöhrət" ordenli, əməkdar müəllim Bayram Mirabbas oğlu Heydərovun həyat amalı da onu belə bir müqəddəs missiyanın daşıyıcısına çevirmiş, seçdiyi müəllimlik sənəti ilə tarixin ən qədim dövrlərindən üzü bəri insanları nura doğru aparan maarifçi ziyalılar cərgəsinə gətirib çıxarmışdır.

O, dünyaya sanki müəllimlik etmək, maarif ziyasını gənclər arasında yaymaq üçün gəlmişdi. 62 illik ömrünü ancaq bu niyyət uğrunda yaşadı. Həyatının mənasına çevrilmiş müəllim sənətini hər zaman uca tutdu. Öz peşəsinə verdiyi dəyərlə bu adı daha da yüksəltdi. Onu tanıyanların yaddaşında mükəmməl bir müəllim abidəsi yaratdı.

Bayram müəllimin minlərlə insanın xatirələrindəki işıqlı obrazı yenə də canlıdır və öz ucalığındadır. Hamı belə deyir: "Yaşasaydı, daha böyük işlər görə bilərdi". Amma 62 illik qısa ömürlə də o, bir insanlıq, bir ziyalılıq tarixi yaratdı.

...Bayram Mirabbas oğlu Heydərov 1956-cı il martın 22-də indiki Ermənistanın Zəngibasar rayonunun Dəmirçi kəndində ziyalı ailəsində dünyaya gəlmişdi. Valideynlərindən, müəllimlərindən aldığı tərbiyənin, xeyirduanın işığında, dünyanın əbədi suallarına cavab axtara-axtara gələcək ömür yolunu müəyyənləşdirmişdir. Tanış-bilişsiz, qohum-simsarsız nəyə qadir olduğunu göstərmək niyyəti ilə arzularının reallığını Azərbaycan Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsində axtarmışdı. 1979-cu ildə ali təhsilini başa vuraraq Azərbaycan EA-nın Riyaziyyat və Mexanika İnstitutunun konstruktor bürosunda laborantlıqdan aparıcı konstruktora kimi yüksəlmişdi.

O, 1980-ci illərin sonlarında Sankt-Peterburqdakı elmi mərkəzdə, Novosibirsk Dövlət Universitetində ikiillik ixtisasartırma kurslarında oxumuşdur. Aspirantura təhsili almışdır. SSRİ EA-nın həqiqi üzvü, akademik M.M.Lavrentyevin rəhbərliyi altında Novosibirsk Dövlət Universitetində diferensial tənliklər ixtisası üzrə dissertasiyasını uğurla müdafiə edərək elmlər namizədi dərəcəsinə layiq görülmüşdür. 1988-ci ilin yanvarında vətənə dönərək AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda fəaliyyətini davam etdirməyə başlamışdır. Zaman o zaman idi ki, bədnam qonşumuz Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları üzündən Dağlıq Qarabağda müharibə odu alovlanırdı...

## Dərk olunmuş həqiqətin ardınca

Əvvəllər Riyaziyyat və Mexanika İnstitutunun Xüsusi Konstruktor Bürosunda çalışdığından Bayram Heydərovun hərbi sənaye sahəsində də böyük elmi səriştəsi vardı. Onda bu cür elmi mərkəzlər hərbi sənayenin müəyyən sifarişlərini yerinə yetirirdi. O da alim həmkarları ilə birgə adı çəkilən tədqiqat müəssisəsində hərbi məsələlərlə məşğul olmuşdu. Sankt-Peterburq və Novosibirsk şəhərlərində elmi ezamiyyətdə olduğu zaman bu sahədə bilik və bacarıqlarını daha da artırmışdı. Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda Müdafiə Nazirliyi yenicə qurulurdu. Hərbi sahədə kadrlar çatışmırdı. Bayram müəllim elmi, nəzəri təcrübəsinə söykənərək onunla həmfikir alim həmkarları ilə birgə Müdafiə Nazirliyinə müraciət edir. Məqsəd cəbhədəki canlı itkilərin qarşısını almaqdan ötrü hərbi xarakterli elmi-tədqiqat mərkəzinin yaradılmasından ibarət idi. Onlar bu niyyətlə işçi qrupu formalaşdırır, təkliflərini nazirliyə təqdim edirlər. Amma məsələ konkret məqama çatanda məlum olur ki, Azərbaycanda bu məsələlərin həllinə qabil nə yüksək, nə də orta səviyyəli kadrlar var.

Bu vəziyyət Bayram Heydərovu məyus etsə də, əslində, ona böyük bir həqiqəti anlatmış oldu: cəmiyyətin irəli getməsi, istənilən sahədə uğur qazanması üçün ilk növbədə, yüksək intellektual zəkaya malik insan yetişdirməkdir. Gücü insanların təlim və tərbiyəsinə yönəltməkdir. Bundan ötrü isə təhsilin ibtidaisindən başlamaq lazımdır.

Belə bir düşüncə onu və çevrəsindəki vətənpərvər ziyalıları yeni bir ideya ətrafında səfərbər etdi. Onlar Bakıda tamamilə müasir tipli məktəbin yaradılması yönündə fəaliyyətə başladılar. Onda müstəqilliyini yenicə əldə etmiş Azərbaycanın təhsil sistemi tənəzzül dövrünü yaşayırdı. Onu inkişaf etdirmək, qlobal çağırışlara uyğunlaşdırmaq üçün bu cür innovativ təşəbbüslər gərəkli idi. Beləliklə, AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda Bayram müəllimin təşəbbüsü, institutun direktoru, unudulmaz alim, akademik Fərəməz Maqsudovun dəstəyi ilə "Zəngi" adında kiçik dövlət müəssisəsi yaradıldı.

Orta məktəb şagirdləri üçün müxtəlif adlarda kitabların yazılması, müəssisələr üçün avtomatik idarəetmə sistemlərinin yaradılması, dəqiq ölçü cihazlarının hazırlanması ilə məşğul olan "Zəngi"nin nəzdində 1992-ci ildə lisey formalaşdırıldı. Erməni işğalı altında qalmış qədim torpaqlarımızdakı məşhur "Zəngi" çayının adı verilmiş təhsil ocağında kibernetika, radioelektronika, biokimya, genetika və s. müasir istiqamətlər üzrə biliklər öyrədilirdi.

Amma liseyin ilk addımları heç də rəvan olmadı. Yarandıqdan az sonra məqsədyönlü fəaliyyətinə baxmayaraq, heç bir izah və açıqlama verilmədən bu təhsil müəssisəsi 1993-cü ildə bağlandı.

Yalnız ümummilli lider Heydər Əliyevin məsələyə obyektiv münasibəti sayəsində "Zəngi" liseyi öz qapılarını yenidən şagirdlərinin üzünə açdı. Yüksək hazırlıqlı alim-müəllimlərin fədakarlığı, öz vəzifələrini vicdanla yerinə yetirmələri, müasir təlim texnologiyalarının tətbiqi qısa zamanda "Zəngi"ni öncüllər cərgəsinə çıxardı. Burada təbii ki, liseyin yaradıcısı Bayram Heydərovun idarəçilik qabiliyyəti, işgüzarlığı, bacarığı xüsusi qeyd olunmalıdır.

## Cəsarət, prinsipiallıq, vətən sevgisi...

Onunla hər dəfə ünsiyyətdə olmaq insana böyük bir zövq verirdi. Qarşısındakı həmsöhbətini diqqətlə dinləmək səriştəsi, təmkini, yüksək mədəniyyəti, tələbkarlığı, iradəsi, nikbinliyi, gələcəyə inam hissi, uzaqgörənliyi, incə diplomatiyası çoxları üçün örnək sayılırdı. O, təhsil ocağının rəhbəri kimi minlərlə gəncin təliminin, tərbiyəsinin qayğısına qalır, onlara çətinlikləri dəf etmək qaydalarını öyrədir, yeniyetmələrin düşüncə tərzini məhdudlaşdıra biləcək bütün maneələri aradan qaldırmağa çalışır və buna da müvəffəq olurdu. Yardıma möhtac olana kömək əlini uzatmaq, arxasında durmaq, həyatdan küskün insanlara yaşamaq üçün stimul yaratmaq bizlərə ulularımızdan miras qalmışdır. Təbii ki, hər kəs bu dəyərlərə öz mənəviyyatının müəyyən etdiyi çərçivədən yanaşır. Bayram müəllim üçün isə bu dəyərlər uzun illər idi ki, həyat normasına çevrilmişdi. Vətən sevdalısı olan B.Heydərov Azərbaycanın mənafeyi, vətəndaşlarının rifahı naminə hər cür fədakarlığa hazır olduğunu dəfələrlə sübuta yetirmişdir.

...Rusiyada aspiranturanı bitirib Bakıya qayıtmışdı. Onda xalq hərəkatı yenicə başlanmışdı. İnsanlar meydanlara toplaşıb öz haqlarını tələb edirdi. Bayram Heydərov da tez bir zamanda hərəkatın fəallarından oldu. 1988-ci il noyabr ayının sonlarında atası Mirabbas müəllimdən xəbər alır ki, indiki Ermənistanın Zəngibasar bölgəsinin əhalisi erməni vəhşiliyi nəticəsində Türkiyənin sərhədinə toplaşıb. Təcili köməyə ehtiyacları var. Havalar soyuq, insanlar yandırmağa odun, kömür tapmır, qida məhsulları üçün rayon mərkəzinə, İrəvana gedə bilmirlər. Zəngibasardan olanlar Bakıda hərbi komandanlıq qarşısında piket keçirirlər. Vəziyyəti komendanta çatdırır, təcili tədbirlərin görülməsi üçün tələblər səsləndirirlər. Bir neçə nəfər hərbi komendantla görüşüb ona bölgənin xəritəsini təqdim edir. Komendant bölgəni yaxşı tanıyan piket iştirakçılarına üz tutur. Yüzlərlə insan arasından bir neçə nəfər, eyni zamanda Bayram Heydərov da ora könüllü getmək arzusunu bildirir. 1988-ci il dekabrın əvvəllərində Bakının Qala aeroportunda hərbi təyyarə ilə bir qrup hərbçinin əhatəsində əvvəl İrəvanın Erebuni aeroportuna, oradan isə hərbi vertolyotla sərhəd bölgəsinə insanların xilasına gedir. Həmin ağır anlarda həyatları qurtulan soydaşlarımız Bayram Heydərovu indi də dərin minnətradlıq hissi ilə xatırlayırlar.

Sonrakı dövrlərdə onun fəaliyyəti təkcə elmi-pedaqoji sahə ilə məhdudlaşmır. Bayram müəllim Azərbaycan Demokratik İstiqlal Partiyası Ali Məclisinin sədri olmuşdu. Bu qurum Yeni Azərbaycan Partiyası ilə birləşdikdən sonra YAP-ın I qurultayında onun siyasi şurasına üzv seçilmişdi. B.Heydərov əqidə adamı idi. Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi milli dövlətçilik kursuna, bu kursu uğurla davam etdirən, dövlətimizə böyük nailiyyətlər qazandıran Prezident İlham Əliyevin yürütdüyü siyasətə hər zaman sadiq idi. Bu siyasətə əməli işi ilə töhfələr verməyə çalışırdı. Və onun əməyi dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilirdi. Bayram Heydərov əməkdar müəllim adına layiq görülmüşdü. 2010-cu ildə isə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdi.

Yaratdığı "Zəngi" liseyinin bu gün Azərbaycanın təhsil sistemində öz yeri var. Bu liseydə yüzlərlə savadlı, intellektual, Azərbaycana layiqli vətəndaş yetişib. Onlar hazırda respublikanın müxtəlif sahələrində çalışır, ölkəmizə fayda verirlər.

İnsanlara sevgi, humanizm, alicənablıq, rəhimdillik Bayram müəllimin şəxsiyyətində nəzərəçarpan ən parlaq cizgilərdən idi. Yenilikçilik, məqsədyönlülük, islahatçılıq onun xarakterik xüsusiyyətləri kimi ilk baxışdan diqqəti cəlb edirdi. Haqqın, ədalətin öz yerini tutması üçün mübarizə aparmaqdan heç zaman yorulmurdu, prinsiplərindən bir addım da olsun geri çəkilmirdi. Ziyalılıq taleyini yaşayan bütün insanlar kimi, o da ömrü boyu həqiqətə inanmış, həyatın mənasını anlamağı, baş verənlərə səbirli münasibət bəsləməyi bacarmış, şəxsiyyəti ilə çoxlarına örnək olmuşdur.

Onun şəxsiyyətinin bütün cizgiləri, xarakteri müəllim adının müəyyən etdiyi tələbləri tamamlayırdı. Deyirdi: "Hər kəs həyatda tutduğu mövqeyə görə öz müəlliminə borcludur. Müəllim cəmiyyətin ən nüfuzlu, ən mötəbər insanıdır. Onlar bizim mənəvi dünyamızın təməlini qoyur, xarakterimizi, dünyagörüşümüzü formalaşdırır, bizi ictimai münasibətlər sisteminə qovuşdururlar".

Bayram müəllim müxtəlif fənləri çox yaxşı bilirdi, müəllim sənətinə sadiqliklə elmin inkişaf üfüqlərini - yeni kəşfləri, tədqiqatları, nailiyyətləri izləyirdi. Tədris proqramında nəzərdə tutulanlardan daha çox məlumatlı idi, dərin biliyi, geniş dünyagörüşü ilə şagirdlər qarşısında elmin, biliyin, tədris prosesinin cəzbedici qüvvəsini açmağa müyəssər olurdu. Liseyin şagird və müəllimləri onun simasında müdrik, düşüncəli, peşəsinə vurğun bir insan görürdülər. O bilirdi ki, müəllim şəxsiyyəti hər zaman, hər yerdə tamlıq, mükəmməllik istəyir. Onun nüfuzunun ləkələnməsi aynanın parçalanması kimidir. Ən mahir usta belə, o parçaları yenidən əvvəlki halına gətirməyi bacarmaz. Bir müəllimin nüfuzunun itməsi təkcə onu deyil, bütövlükdə çalışdığı kollektivi hörmətdən salır. Ona görə də Bayram müəllim özünün şəxsində ümumən müəllim adının nüfuzunu, bu adın şərəfini qoruyurdu. Övladlarına da bunu təlqin edirdi. Qızı Səadət Heydərova AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun dissertantıdır. "Zəngi" liseyində çalışır, riyaziyyat müəllimidir, atasının davamçısıdır.

* * *

Onun qurub-yaratdığı "Zəngi" liseyinin şüarı belədir: "Öyrən, inkişaf et, yarat!" Bu şüarı Bayram müəllim seçmişdi. Çünki bu üç ardıcıl çağırış onun özünün də qırılmaz həyat düsturu idi. Bayram müəllim 62 illik ömrünün hər gününü öyrənmək, inkişaf etmək, yaratmaq üçün yaşadı. Və bu prinsipi başqalarına da ötürdü. Dövlətin elan etdiyi insan kapitalının inkişafı siyasətinə işgüzar fəaliyyəti ilə hər zaman dəstək oldu. Onun ömür yolunu işıqlandıran şəfəq isə müəllim kimi xeyir-dua verdiyi yüzlərlə, minlərlə insanın taleyinə hələ bundan sonra uzun illər işıq saçacaq.

Maarif xadimi, "Şöhrət" ordenli Bayram Heydərovun nurlu xatirəsi hər zaman qəlblərdə yaşayacaq.

***İradə ƏLİYEVA, "Azərbaycan"***

Sumqayıt Dövlət Dram Teatrı - 50

Səhnə çətin, qarmaqarışıq və dərs verən bir məkandır. Burada kimləri tapmaq olar: yaxşıdan pisə, qəddardan alicənaba, dayaz təfəkkürdən ağıllı mənsəbə, yadlardan tutmuş özümüzə qədər olan insan toplumu necə də maraqlı görünür. Dünəndən bu günə uzanan tale yolunun zərrə-zərrə şölələrini canlandırdığı bir boxçadır səhnə. Açılır, içində kimlər və nələr var, İlahi! Kiminin taleyinə acıyır, bəzilərini qınayır, bəzən də mat-məəttəl qalırıq. İçimizdəki məni səhnədə görəndə çaşırıq. Ya ibrət götürür, ya da qürurlanırıq.



# Sözün kəsəri, səsin əzəməti: səhnə məkanında



Yəqin ki, söhbətin teatrdan getdiyini bildiniz. Bu teatr ki var, onda hər şey bütövdür. Tale, insan, təbiət, şəxsiyyət, cəmiyyət və onları birləşdirən tellər bir-birinə o qədər bağlıdır ki, ayrılması mümkün deyil. Amma bütün tamaşalar səslənən zənglərlə başlayır.

## *Birinci zəng*

XX əsr dünyada böyük dəyişikliklər dövrü olub. İki dünya müharibəsi yaşayan həmin əsr xəritə dəyişkənlikləri ilə seçilir. Ötən əsrin respublikamızdakı ən böyük nailiyyətlərindən biri Sumqayıt şəhərinin yaradılmasıdır. İkinci Dünya müharibəsindən sonrakı dövrdə sənayenin daha da inkişafı üçün belə bir şəhərin salınması vacib hesab edildi. Sovet dövlətinin çağırışı ilə birliyin hər tərəfindən insanlar bura axışdı. Gənclər onların içində çoxluq təşkil etdiyindən, yeni yaradılan Sumqayıtı "Gənclər şəhəri" də adlandırdılar.

Bütün çətinliklərə baxmayaraq məhz insan zəhmətinin bəhrəsi nəticəsində boz çöllər simasını dəyişdi. İnsan məskən salmaq üçün özünə yaşam şəraiti düzəltdi. Az bir zaman kəsiyində salınan şəhərdə həyat axarına düşdü.

İnsan bütün mədəni dəyərlərin yaradıcısıdır. Nə olur-olsun, orada mədəniyyət olmalı, insanlar ondan bəhrələnməlidirlər. Sumqayıtda ilk belə mədəniyyət müəssisəsi kimi teatrın yaradılması və onun üçün binanın tikintisi də vacib əhəmiyyət kəsb edirdi. Ötən əsrin əllinci illərində təhlükəsizlik orqanında yüksək vəzifədə çalışan ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə belə bir teatr binasının tikinti işlərinə başlandı. Ulu öndər Heydər Əliyev sonralar belə xatırlayırdı: "Bu böyüklükdə şəhərdir, 300 minə yaxın əhalisi var. Əgər mədəni istirahət üçün bir yerə getmək imkanı yoxdursa, teatr dağılıbsa, sarayın bu birisi də istifadə olunmursa, bu insanlar nə etməlidirlər? 1969-cu ildə biz Ərəblinski adına teatrı yaratdıq. O teatrdan bir çox gənc artistlər Azərbaycan Milli Dram Teatrına, başqa teatrlara gəldilər. Çox yaxşı kadrlar yetişdirdi. Bu birincisi, ikincisi də bu Sumqayıt əhalisinə xidmət edirdi".

Ümummilli lider Heydər Əliyevin qayğısı nəticəsində bu şəhər təkcə respublikamızda deyil, dünya miqyasında tanınan yaşayış mərkəzinə çevrildi. Ulu öndər respublikaya rəhbərlik etdiyi dövrdə Sumqayıtın strukturunun yaradılmasında, mədəniyyət və ictimai binaların salınmasında şəxsən özü göstəriş vermiş, onlara nəzarət etmişdir.

Ümummilli lider tikinti obyektlərinin, yolların, qəsəbələrin salınmasını necə yüksək dəyərləndirirdisə, mədəniyyətə, istirahət guşələrinə, insanların mənəviyyatının qorunmasına və inkişafına da o cür diqqətlə yanaşardı. Sumqayıtın mədəniyyət ocaqlarına şəxsən nəzarət edən ulu öndər şəhərdə mənəvi məsələlərin yüksəlməsini, milli adət-ənənələrimizi əks etdirən memarlıq xüsusiyyətlərinin qorunmasını tövsiyə edərdi.

Təxmini hesablamalara görə, şəhərin yarısı həmin dövrdə inşa edilib. Onların içində mədəniyyət saraylarından biri də Sumqayıt Dövlət Dram Teatrının (həmin dövrdə H.Ərəblinskinin adını daşıyırdı) binasıdır.

Daha çox yaşayış binasının tikintisinə yer ayrıldığı bir zamanda ulu öndər belə bir binanın inşasına başlanmasını vacib bildi. Hətta bina üçün ərazini ulu öndər özü seçmişdi. Yarım əsrlik bir zaman kəsiyində şəhər sola və sağa genişlənsə də, həmin bina ərazi əhəmiyyətini itirmir.

1969-cu ildən fəaliyyətə başlayan teatrın səhnəsində əvvəllər dünya mütəfəkkirlərinin əsərləri tamaşaya qoyulardı. Bu da əsasən rusdilli əhalinin maraq dairəsini təmin edərdi. Şəhərə səfərə gələn ulu öndər ilk dəfə olaraq yerli yazıçıların əsərlərini tamaşaya qoymağı təklif etdi. Bəzən Heydər Əliyev məşqlərə baxmağa gələr, aktyorların oynuna şəxsən baxardı. Bu, teatrın aktyorlarına bir stimul verərdi.

Teatrda 1981-ci ildə tamaşaya qoyulan əsərlərdən biri də Nəriman Həsənzadənin "Bütün Şərq bilsin" idi. Vətənpərvərlik, yenilik, sabaha inam ideyaları ilə köklənmiş bu tamaşanın premyerasında ümummilli lider Heydər Əliyev də iştirak edirdi. Tamaşa sona çatdıqdan sonra səhnəyə qalxan Heydər Əliyev teatrın yaradıcı heyəti ilə görüşdükdən sonra üzünü zala tutub dedi: "Baxın, bizim necə gözəl əsərlərimiz var. Belə əsərlərdən çox yazılmalı, onların çoxu tamaşaya qoyulmalıdır. Təkcə Şərq deyil, bütün dünya Azərbaycan mədəniyyətinin nəyə qadir olduğunu görməlidir. Özü də unutmayaq ki, bu gözəlliyin, mədəniyyətin yaradıcısı Azərbaycan xalqıdır, onun bir hissəsi olan sumqayıtlılardır".

Həmin tamaşadan sonra məhz Heydər Əliyev mədəniyyət ocağının tam şəkildə Hüseyn Ərəblinski adına Sumqayıt Musiqili Dram Teatrına verilməsini təklif etdi. Lakin həmin dövrdə ulu öndərin bu tapşırığı yerinə yetirilməmiş qaldı. 2003-cü ildə Sumqayıta səfər edən ümummilli lider neçə illər öncə irəli sürdüyü təklifin reallaşdırılması üçün göstəriş verdi. Həmin ildən teatrın binası tam şəkildə kollektivin ixtiyarına verildi. Sumqayıt Dövlət Dram Teatrının səhnəsindən onlarla sənətkar pərvazlanmış, teatr məktəbinin korifeylərinə çevrilmişlər. Muxtar Dadaşov, Barat Şəkinskaya, Afaq Bəşirqızı, Valeh Kərimov və onlarla digərləri bu mədəniyyət ocağının yetirmələridir.

## *İkinci zəng*

Bu gün şəhərdəki yeniliklər sırasına daxil olanlardan biri də teatr binasına göstərilən qayğıdır. Üstündən xeyli zaman keçməsinə baxmayaraq, bina baxımsızlıq ucbatından öz dəyərini itirmişdi: istifadəyə verildiyi zamandan bugünədək bir dəfə də olsun əsaslı təmir edilməmişdi. İstilik sistemi köhnəlmiş binada normal qaydada tamaşaların məşqini aparmaq mümkün deyildi.

Ötən ilin əvvəllərində burada təmirə start verildi. Əsaslı təmir və yenidənqurma tədbirləri sayəsində binanın bütün mühəndis-texniki qurğuları tamamilə yenidən qurulub. 500 yerlik tamaşa və akt salonu ən müasir avadanlıqlarla təchiz olunub. Burada tamaşaları bədii və texniki cəhətdən yüksək səviyyədə təqdim etmək üçün 360 dərəcə hərəkət edən səhnə, müasir akustika, işıqlandırma sistemləri və digər avadanlıqlar quraşdırılıb.

Teatrın interyerinin daha cəlbedici görünməsi üçün milli memarlıq ənənələrindən geniş istifadə edilib. Binanın bütün xidməti, dekorasiya və qrim otaqları müasir üslubda tərtib olunub, mebellər tətbiqi sənətin qədim növü olan oyma üsulu ilə işlənib. Teatrın köhnə parket döşəməsi sökülərək monolit dəmir-beton plitələrlə əvəzlənib, binadakı sütunlar isə mərmərlə üzlənib. Bu gün teart binası tam şəkildə təmir edilərək sumqayıtlıların öhdəsinə verilib.

Teatrın binasının təmirdən sonrakı açılışında Prezident İlham Əliyevin iştirakı Sumqayıta və sumqayıtlılara verilən diqqət və qayğının nəticəsidir. Dövlət başçısı mədəniyyət ocağının yüksək şəraitinə, səhnə tərtibatına görə inşaatçılara razılığını bildirmiş, teatrın aktyorlarına uğur diləmişdir.

## *Üçüncü zəng*

Teatr yerləşdiyi şəhərin mədəniyyət göstəricisidir. Bu gün sumqayıtlılar bayram və istirahətlərini möhtəşəm Sumqayıt bulvarında, Nəsimi adına parkda keçirirlər. İnsanın təkcə gəzmək deyil, həm də mədəni tədbirlərdə iştirak etməyə marağı olur. Gözəl bir mədəniyyət ocağında tamaşaya baxmağın nəyi pisdir ki?! Sumqayıt Dövlət Dram Teatrı bax, belə bir mədəni missiyanın daşıyıcısıdır.

Prezident İlham Əliyev Sumqayıt Dövlət Dram Teatrının yaradılmasının 50 illiyi münasibətilə sərəncam imzalayıb. Sərəncamda bildirilir ki, respublikamızın zəngin ənənələrinin davamçısı kimi Sumqayıt Dövlət Dram Teatrı fəaliyyətə başladığı ilk vaxtlardan səmərəli yaradıcılıq axtarışları ilə daim diqqəti cəlb etmiş, klassik və müasir dramaturgiya xəzinəsinin bir sıra nümunələrinə ustad sənətkarların iştirakı ilə yeni quruluşlarda uğurlu sənət həyatı vermiş və ötən dövr ərzində tamaşaçı rəğbətini qazanmışdır. İstedadlı aktyor və rejissorlar yetişdirən Sumqayıt Dövlət Dram Teatrı bu gün ölkənin tanınmış sənət ocaqlarından olub, milli mədəniyyətin ümumi tərəqqisi işinə töhvələr bəxş etməkdədir.

Bütün bu deyilənlər ölkə rəhbərinin kollektivin əməyinə verdiyi böyük qiymətdir. Hazırda teatrın kollektivi həmin möhtəşəm tədbirin keçirilməsinə hazırlaşır.

Teatrın kollektivi 150 nəfərdən çoxdur. 1 xalq və 10 Əməkdar artist, 2 nəfər respublikanın Əməkdar mədəniyyət işçisi və 7 "Tərəqqi" medalçısı çalışır.

Hər teatr mövsümünə yeni tamaşalarla gələn Sumqayıt Dövlət Dram Teatrının repertuarı zəngindir. Tamaşalarda gənc aktyorlara rollar verilir. Onların yetişdirilməsi üçün tamaşaların sayı artırılır. Bu da onların püxtələşməsində xüsusi rol oynayır.

Teatrın repertuarı genişdir. M.F.Axundzadənin "Hacı Qara", İsi Məlikzadənin "Soltanqulu körpüsü", Hüseynbala Mirələmovun "Vicdanın hökmü", Rəhman Əlizadənin "Sabah çoxdan başlayıb", dünya ədəbiyyatından Əziz Nesinin "Öldür məni, can-ciyər", Con Patrikin "Qocanı öldürməli", Marsel Bertye Marinyenin "Oğru", Turgut Özakmanın "Ocaq", Emanuel Smitin "Tanrıya on dörd məktub", Əfqanın "Atilla", "Dədə-Qorqud" dastanları əsasında hazırlanmış "Dəli Domrul" tamaşaları sumqayıtlıların maraqla qarşıladıqları səhnə əsərləridir. Vidadi Məmmədov, Namis Şahməmədov, Növrəstə Həşimova, Fəranə Musayeva, İzaməddin Bağırov, Rauf Ağakişiyev, Cəlal Məmmədov, Oktay Mehdiev, Xatirə Süleymanova, Sədaqət Nuriyeva, Habil Xanlarov, Şəhla Məmmədova, İlahə Səfərova, Şəmistan Süleymanlı, Amil Babayev kimi səhnə fədailəri tamaşanın keyfiyyətli alınmasında böyük xidmətlər göstərirlər.

Teatr özünün 50-ci mövsümünə hazırlaşır. Nizami Muradoğlunun "Zülmətdə nur" əsəri ilə başlayacaq mövsümdə daha bir neçə ədibimizin yaradıcılığına müraciət edilib. Dünya ədəbiyyatı nümunələri də kollektivin repertuarında yer alıb. Hazırda bir neçə tamaşanın məşqləri gedir.

Yeni mövsüm üçün hazırlanan əsərlərin Sumqayıtın bütün mədəniyyət saraylarında oynanılması nəzərdə tutulub. Sumqayıt Dövlət Dram Teatrının direktoru, əməkdar artist Mübariz Həmidov bildirdi ki, bəzən insanlar yaşadıqları ərazidə olan mədəniyyət saraylarında oynanılan tamaşalara daha həvəslə gəlir. Ümumiyyətlə, görülən və görüləcək işlərlə bağlı teatrın elektron saytında məlumat yerləşdirilib.

Beləcə, pərdələr açılır. Səhnədə aktyorlar öz yerlərini tutaraq hansısa bir xoşbəxtin, ya da bədbəxtin, yaxşının, pisin obrazında cəmiyyətin içinə baş vurur, bizi nəyəsə inandırmağa çalışırlar. Beləcə tamaşa gedir.

Mənəvi dəyər insanın iç dünyasının qazancıdır. Hər kəsin borcu mənəvi dəyərlə ölçülür. Onu isə qazanmaq yaratdığın obrazın dəyəridir. Bütün tamaşalarda sonda hamı ayağı qalxır və bir də ətrafı silkələyən alqışlar eşidilir. Tamaşanın ən böyük dəyərini verən isə həmin alqışlardır. Sumqayıt Dövlət Dram Teatrından alqış sədaları hələ çox eşidiləcək. Çünki mənəvi borcun dəyəri qiymətsizdir.

***Akif ƏLİYEV, "Azərbaycan"***

# Məktəblər arasında müxtəlif idman növləri üzrə respublika çempionatı keçiriləcək





Sentyabrın 26-da Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Milli Olimpiya Komitəsi və Azərbaycan Məktəb İdmanları Federasiyası (AMİF) arasında "Məktəblər arasında respublika çempionatı"nın keçirilməsi haqqında birgə əmrin imzalanması mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, birgə əmri gənclər və idman naziri Azad Rəhimov, təhsil naziri Ceyhun Bayramov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Azərbaycan Məktəb İdmanları Federasiyasının prezidenti Sevinc Hüseynova imzalayıblar.

İmzalanma mərasimində müvafiq dövlət qurumlarının, aidiyyəti idman təşkilatlarının nümayəndələri iştirak ediblər.

Tədbiri açan MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə idmanın inkişafında məktəb idmanının əhəmiyyətindən danışıb, çempionatın keçirilməsinin ölkəmizdə məktəblilər arasında idmanın inkişafına təkan verəcəyini, Olimpiya hərəkatının təşviq edilməsində xüsusi rol oynayacağını vurğulayıb.

Gənclər və idman naziri Azad Rəhimov çıxışında idmançıların məktəb yaşlarından formalaşmağa başladığını, belə yarışların istedadlı idmançıların seçilməsinə müsbət təsir göstərəcəyəni, onların peşəkar idmançı kimi yetişməsi üçün vacib olduğunu bildirib.

Daha sonra çıxış edən təhsil naziri Ceyhun Bayramov təhsilin keyfiyyətinin yüksəldilməsində və bu sahədə uğurlu nəticələrin əldə olunmasında təhsilalanların sağlamlığının əhəmiyyətindən danışıb, sağlam və fəal həyat tərzini təşviq edən layihələrin dəstəkləndiyini vurğulayıb. C.Bayramov çıxışında sözügedən çempionatın nəticələrinin məktəblərin reytinqlərinin qiymətləndirilməsi zamanı nəzərə alınacağını deyib.

Azərbaycan Məktəb İdmanları Federasiyasının prezidenti Sevinc Hüseynova tədbirdə çıxış edərək yeni yaranmış Federasiya tərəfindən reallaşdırılan layihələr barədə danışıb, çempionat çərçivəsində keçirilən oyunlarda voleybol və basketbol idman növləri üzrə qalib məktəblərin komandalarının beynəlxalq yarışlarda iştirakının AMİF tərəfindən təmin ediləcəyini bildirib.

Qeyd edək ki, "Məktəblər arasında respublika çempionatı"nın keçirilməsində məqsəd ümumtəhsil məktəblərində bədən tərbiyəsi və idmanın şagirdlər arasında kütləviləşdirilməsi, onlar arasında idmana olan marağın artırılması, məktəblərdə sağlam və fəal həyat tərzinin təşviqi, ümumtəhsil məktəblərinin idman sahəsində sinifdənxaric və məktəbdənkənar fəaliyyətlərinin qiymətləndirilməsi, olimpiya idman komplekslərindən və bazalarından səmərəli istifadənin təmin edilməsindən ibarətdir.

2018-2019-cu tədris ili ərzində keçiriləcək çempionatın əsasnamə və proqramına uyğun olaraq, yarışlarda Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən bütün rayon və şəhər ümumtəhsil müəssisələrinin şagirdləri şahmat (2-4-cü siniflər), atletika (5-7-cı siniflər), voleybol (qızlar, 7-9-cu siniflər), basketbol (oğlanlar, 9-11-ci siniflər) idman növləri üzrə iştirak edəcəklər. Yarışlar 4 mərhələ üzrə keçiriləcək (I mərhələ məktəbdaxili, II mərhələ rayondaxili, III mərhələ zona yarışları və IV mərhələ final). Şahmat və atletika idman növü üzrə keçirilən yarışlar ölkədaxili xarakter daşıyır. Voleybol və basketbol idman növləri üzrə keçirilən yarışlar isə məktəblərarası beynəlxalq yarışlara seçim mərhələsidir. Voleybol üzrə qalib məktəb komandası Xorvatiyanın Poreç, basketbol üzrə qalib məktəb komandası isə Yunanıstanın Heraklion şəhərində keçirilən məktəblərin dünya çempionatında ölkəmizi təmsil edəcək.


## Bakı Şəhər İcra Hakimiyyəti "Yaşıl Teatr" Bakı Konsert Kompleksi tədbirlərin keçirilməsinin satın alınması məqsədilə

### açıq tender elan edir

**Tender 1 LOT üzrə keçirilir.**
**LOT - 1. 9 noyabr - Dövlət Bayrağı Günü münasibəti ilə tədbir**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları yüksək kadr potensialına, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər 200 manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Sona Vəlixanlı küçəsi, 1 ünvanından ala bilərlər.

Əlaqələndirici şəxs; İlqar Əziz oğlu Cavadov, tel: 492-46-34.

**Kapital Bank Səbail filialı**
**Kod: 200059**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**SWIFT: AİİBAZ2X**
**"Yaşıl Teatr" Bakı Konsert Kompleksi**
**H/H: AZ05AIIB33070019443501623105**
**VÖEN: 1700779931**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflər açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1(bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət Satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **29 oktyabr 2018-ci il saat 18:00-a** qədər, tender təklifi və bank zəmanəti isə möhürlənmiş, ikiqat zərfdə **7 noyabr 2018-ci il sat 17:00-a** qədər "Yaşıl Teatr" Bakı Konsert Kompleksi ( ünvan: Bakı şəhəri, Sona Vəlixanlı küçəsi, 1) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri **8 noyabr 2018-ci il saat 11:00-da** yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

*Bakı Şəhər İcra Hakimiyyəti İqtisadiyyat Komitəsi mebellərin alınmasının kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

**Maraqlanan şəxslər 492-63-90 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının Sərbəst Elektron Resurslar şöbəsinin Əlaqələndirmə bölməsinin rəhbəri vəzifəsini tutmaq üçün müsabiqə elan edilir. Müsabiqədə iştirak etmək istəyənlər e-mail vasitəsi ilə əlaqə saxlaya bilərlər.

**(irc.fuad.aslanov@gmail.com)**

***AMEA MEK direktorluğu***

*Təkrar*

## "Bakı Metropoliteni" QSC Bənövşəyi xətti üzrə şərti adı "B03" stansiyası üçün kameraların alınması, quraşdırılması və işə buraxılması işlərinin satın alınması üzrə

### açıq tender elan edir

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 20-dən (Əlaqələndirici şəxs: İlqar Qasımov; telefon: 490-00-91) ala bilərlər.

**LOT-1. "Bakı Metropoliteni" QSC-nin Bənövşəyi xətti üzrə şərti adı "B03" stansiyası üçün kameraların alınması, quraşdırılması və işə buraxılması işlərinin satın alınması.**

**İştirak haqqı - 250 manat**
**Hesabın adı: BAKI METROPOLİTENİ QSC**
**Hesab nömrəsi (IBAN) :**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN 1402871431**
**Bankın adı : AZƏR TÜRK BANK ASC (Mərkəz filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **19 oktyabr 2018-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **29 oktyabr 2018-ci il saat 18:00-a** qədər, Bakı şəhəri, M.Rəfili küçəsi 20 ünvanına, "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **30 oktyabr 2018-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***


# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## *Antoniu QUTERREŞ:* "Dünya xaos və dağıntı təhlükəsi ilə üz-üzədir"



BMT-nin baş katibi Antoniu Quterreş hazırkı dünya qaydasına xaos və oturuşmuş dəyərlərin dağılması təhlükəsindən narahatlığını ifadə etmişdir. Bu barədə "Rosbalt" agentliyi xəbər verir.

Baş katibin fikrincə, hazırda ümumbəşəri dəyərlər yox olur, demokratik prinsiplər isə ikinci plana keçir. Müasir dünyada adamlar arasında etibarın get-gedə azalması müşahidə olunur, "çoxmillətli əməkdaşlıq" prinsipi isə təhlükə altındadır.

BMT Baş Assambleyasının 73-cü sessiyasında çıxış edən Quterreş həmçinin bəşəriyyətin qlobal problemləri arasında iqlim dəyişməsini və kibercinayətkarlığı vurğulamışdır. Bundan əlavə, siyasətdə artan populizm və dünyanın müxtəlif ölkələri arasında rabitəsizlik baş katibdə narahatlıq doğurur.

## ABŞ Rusiyanın 12 şirkətinə qarşı sanksiyalar tətbiq etdi



ABŞ Ticarət Nazirliyi "Birləşmiş Ştatların milli maraqlarına zidd olan" hərəkətlərə görə Rusiyanın 12 şirkətinə qarşı sanksiyalar tətbiq etmişdir. Məhdudlaşdırıcı tədbirlər dünəndən qüvvəyə minmişdir.

"Qara siyahı"da yer almış şirkətlərin Amerika mallarına və texnologiyalarına yolu bağlanacaq. Onların arasında da "Vektor" elmi tədqiqat institutu, "Qamma" elm-istehsalat müəssisəsi, "Sayrus Sistems" şirkəti və "İnfoteks" şirkətlər qrupu var. Adıçəkilən şirkətlər "kibərməkanda zərərli fəaliyyət"də ittiham olunurlar.

Beş şirkət - "Aerokompozit", "Texnologiya" elm-istehsalat müəssisəsi, "Aviadviqatel" konstruktor bürosu, "Presizion cihazqayırma sistemləri" elm-istehsalat korporasiyası və "Veqa" elmi tədqiqat institutu hərbi aerokosmik sahə ilə əlaqəlidir. "Okeanos" elmi tədqiqat sualtı texnologiyalar müəssisəsi və "Dayvtexnoservis" şirkəti Rusiya hərbi dəniz donanmasına yardım etməkdə ittiham olunur. Bundan əlavə, İranın raket proqramını dəstəklədiyinə görə "Nilco Group" şirkətlər qrupuna qarşı cəza tədbirləri tətbiq edilmişdir.

## Almaniya Katolik Kilsəsi üzr istədi



Kardinal Reynhard Marks Almaniya Katolik Kilsəsi adından din xadimlərinin əxlaqsız hərəkətlərinin qurbanlarına rəsmən üzrxahlıq etmişdir. O, belə faktları cinayət kimi qiymətləndirərək bildirmişdir ki, bunları törədənlər cəzalandırılmalıdırlar.

Fulda şəhərində Almaniya yepiskoplarının konfransına qatılanlar kilsənin dörd il əvvəl sifariş etdiyi 350 səhifəlik hesabatla tanış olacaq və onu müzakirə edəcəklər. Sənəddə azı 1600 keşiş tərəfindən 3677 uşağa münasibətdə əxlaqsız hərəkətlər aşkar olunmuşdur. Hesabat 1946-2014-cü illəri əhatə edir. Almaniyanın ədliyyə naziri Katarina Barli qeyd etmişdir ki, tədqiqat şok doğurur və güman ki, aysberqin ancaq görünən hissəsidir. O, kilsəni faktların onillər boyu gizlədilməsinə, təkzib və inkar olunmasına görə məsuliyyəti üzərinə götürməyə çağırmışdır. Barli həmçinin bildirmişdir ki, Roma Katolik Kilsəsi dövlət prokurorları ilə əməkdaşlıq etməlidir.

Yeni tədqiqata əsasən, güman olunan cinayətkarların yalnız 38 faizi məsuliyyətə cəlb olunmuş və onların əksəriyyəti kiçik intizam cəzası almışdır.

## Avropa və MDB-də yeniyetmələr daha az içməyə başlayıblar

Avropada və MDB ölkələrində yeniyetmələr daha az spirtli içki qəbul etməyə başlasalar da, alkoqoldan istifadə əvvəlki kimi yüksək səviyyədə qalır. Belə ki, 15 yaşadək qızların 9 faizi və oğlanların 16 faizi müntəzəm olaraq spirtli içki qəbul edir. Bu barədə Dünya Səhiyyə Təşkilatının (DST) mətbuat xidməti məlumat vermişdir.

DST bununla bağlı "Yeniyetmələrin alkoqolla bağlı davranış stereotipləri: Avropa regionunda tendensiyalar və sosial bərabərsizliklər, 2002-2014-cü illər" adlı hesabat dərc etmişdir. Təşkilat Avropa regionuna Avropa və postsovet ölkələrini, habelə Türkiyə və İsraili daxil edir.

Hesabatda deyilir ki, "qeydə alınmış azalmaya baxmayaraq, alkoqoldan istifadə əvvəlki kimi təhlükəli miqdardadır və ciddi narahatlıq doğurmaqda davam edir". Sənədin aparıcı redaktoru doktor Co İnçli bildirmişdir ki, "alkoqoldan ziyanlı istifadənin ümumi azalması ənənəvi olaraq sərxoşluğun yüksək yayılması qeydə alınan ölkələrdə, məsələn, Böyük Britaniyada və Şimali Avropa regionunda daha qabarıqdır. Belə qənaətə gəlmək olar ki, vəziyyəti dəyişdirmək mümkündür, lakin yeniyetmələri alkoqolun ziyanından səmərəli şəkildə müdafiə etmək üçün şərait yaratmaqdan ötrü əlavə səylər göstərmək lazımdır".

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatı və İşlər İdarəsinin kollektivləri Milli Məclisin Həmkarlar İttifaqı Komitəsinin sədri Rəfael Qafarova atası, sabiq deputat

**İBRAHİM QAFAROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclisi Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adilə Abasova və şöbənin əməkdaşları Mehdi Qurbanov, Adil Vəliyev, Natiq Heydərov, Sevinc Rəhimova, Gülarə İbrahimova, Təranə Qurbanova, Tural Kazımzadə, Həsən Şirinov, Tamerlan Həsənzadə Milli Məclisin Həmkarlar İttifaqı Komitəsinin sədri Rəfael Qafarova atası

**İBRAHİM QAFAROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin Həmkarlar İttifaqı Komitəsinin sədri Rəfael Qafarova atası

**İBRAHİM QAFAROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Nizami Səfərov və həmin şöbənin əməkdaşları Səyyad Kərimov, Eldar Əsgərov, Elmir Vəliyev, Ziya Səmədov, Tamerlan Şeyxzamanov, Ramin Cəlilov, Lalə Baloğlanova, Elnur Nuriyev, Kamalə Paşayeva, Tural Tağıyev, Elçin İsmayıl və Mahir Süleymanlı Milli Məclisin Həmkarlar İttifaqı Komitəsinin sədri Rəfael Qafarova atası

**İBRAHİM QAFAROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclisi Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinin müdiri İbrahim Yusifzadə və şöbənin əməkdaşları Emil Tağıyev, Rüfət Məmmədov, Fuad Piriyev, Anar Vəliyev, Səid Müslümov, Samir Ələkbərov, Cavid İskəndərov, Rauf Əliyev və Sənəm Xəlilova Milli Məclisin Həmkarlar İttifaqı Komitəsinin sədri Rəfael Qafarova atası

**İBRAHİM QAFAROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi "1 N-li Magistral Yolların İstismarı" MMC-nin direktoru Elman Həsənova anası

**GÜLXANIM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8802
Sifariş 2793